

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 02 (844) ■ 18 yanvar 2017 | www.vergiler.az | Qiyməti: 55 qəp.


# Prezident İlham Əliyev: *«2017-ci il Azərbaycan iqtisadiyyatının inkişaf ili olacaq»*

**Yanvarın 12-də Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycanın 2017-ci il üçün iqtisadi prioritetləri» sərlövhəli məqaləsi verilib. Məqaləni təqdim edirik.**




Son illər ölkə həyatının bütün sahələrində reallaşdırılan məqsədyönlü tədbirlər öz uğurlu nəticələrini verib. İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrası ölkəmizin imkanlarını artırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığın inkişafı işinə də xidmət edir. Bu baxımdan, Azərbaycanın təşəbbüsü və liderliyi ilə icra olunan «Cənub Qaz Dəhlizi» layihəsi Azərbaycan qazını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə də öz dəyərli töhfəsini verəcək. Layihə çərçivəsində «Şahdəniz-2» qaz-kondensat yatağının işlənməsi üzrə işlərin 87 faizi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə işlərin 72 faizi, Trans-Anadolu Boru Kəmərinin (TANAP) inşası üzrə işlərin 60 faizi, Trans-Adriatik Boru Kəmərinin (TAP) inşası üzrə işlərin 30 faizi icra edilib. Qeyd etmək lazımdır ki, «Şahdəniz» yatağı təsdiq edilmiş qaz ehtiyatı ən azı 1,2 trilyon kubmetr olan dünyanın ən böyük qaz yataqlarından biridir.

Azərbaycanda tranzit potensialının reallaşdırılması istiqamətində də mühüm layihələrin icrasına başlamışıq. Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi başa çatmalıdır. Bu layihənin icrası Çindən Avropaya yüklərin çatdırılma müddətinin 25-30 gündən 12-15 günə endirilməsinə imkan verəcək. Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində isə ötən il Azərbaycan ərazisində bütün tikinti işləri başa çatdırılıb. Beləliklə, Azərbaycan çox mühüm nəqliyyat qovşağına çevrilməkdədir. Hazırda iqtisadi siyasətin prioritetləri iqtisadiyyatın daha da şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafıdır.

Sənayenin inkişafı məqsədilə sənaye parklarının və zonalarının yaradılması işləri aparılmaqdadır. 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında investisiya dəyəri 2 milyard ABŞ dollarına yaxın olan bir neçə sənaye müəssisəsi açılacaq. Pambıq, tütün, fındıq, çay, barama və digər ixracyönümlü məhsulların istehsalı artırılacaq, bir neçə aqropark və iri fermer təsərrüfatlarının yaradılması davam etdiriləcək. İnformasiya sektorunun inkişafı məqsədilə xidmətlərin keyfiyyətinin, ölkənin tranzit informasiya dəhlizi potensialının artırılması davam etdiriləcək. Son zamanlar elektron vizaların verilməsi, «Tax free» sisteminin tətbiqi, Birinci Avropa Oyunları və Formula-1 kimi mötəbər tədbirlərin keçirilməsi ölkədə turizmin inkişafına əhəmiyyətli töhfə verir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, əldə etdiyimiz real uğurlarla yanaşı, çağırışlarla da üzləşmişik. Qlobal iqtisadi böhran prosesləri Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərib, gəlirlər azalıb və ötən il ərzində milli valyuta 10,1 faiz ucuzlaşıb. Lakin adekvat addımlar ataraq biz bu çətinliklərin öhdəsindən uğurla gəlirik. Daha dayanıqlı inkişafa nail olmaq üçün «Strateji Yol Xəritəsi» təsdiqlənib, struktur, institusional, pul-kredit, maliyyə və digər istiqamətlərdə dərin islahatlar aparılır, vergi və gömrük sahəsində idarəetmə təkmilləşdirilir, bütün sahələrdə şəffaflıq təmin edilir. Misal üçün, ötən ilin 10 ayında ticarət dövriyyəsinin azalmasına baxmayaraq, gömrük rüsumlarının toplanan həcmi 53 faiz artıb.

Azərbaycanın gücü təkcə iqtisadiyyatla məhdudlaşmır: Azərbaycan çoxmillətli bir ölkədir. Əsrlər boyu burada müxtəlif etnik qruplar və dini icmaların nümayəndələri sülh, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşayıblar. Azərbaycanda tolerantlıq ruhu daim hökm sürüb və 2016-cı il Azərbaycanda «Multikulturalizm ili» elan olunub. Ölkəmiz artıq sivilizasiyalar, dinlər və mədəniyyətlərarası dialoqa həsr olunmuş mötəbər beynəlxalq tədbirlərin keçirildiyi mühüm bir məkana çevrilib. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində uğurla təşkil olunması bunun yaxşı nümunəsi və dünya ölkələrinin Azərbaycandakı multikulturalizm mühitinə olan münasibətinin real ifadəsi idi. Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusilə qeyd etmək lazımdır. Bu tarixi səfər zamanı Roma Katolik Kilsəsinin rəhbəri dünyaya çox açıq mesajlar göndərdi. Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi.

Ölkə həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan idman sahəsində də böyük uğurlar əldə edib. Paytaxtda və regionlarda ən müasir Olimpiya idman kompleksləri və digər idman infrastrukturu yaradılıb. Dövlət səviyyəsində idmana göstərilən qayğı və ölkədə ən müasir infrastrukturun yaradılması gənc nəslin idmana olan marağını böyük dərəcədə artırıb. İdmançılarımızın ən mühüm beynəlxalq idman tədbirlərində uğurlu iştirakı bu gün artıq yaxşı ənənəyə çevrilib və Azərbaycan idmançıları Rio Olimpiya Oyunlarında bunu bir daha sübut ediblər. İdmançılarımız 18 medal qazanaraq medalların sayına görə dünyada 14-cü, Avropada 7-ci, postsovet məkanında 2-ci, müsəlman ölkələri içərisində isə birinci yeri qazanıb.

Azərbaycan, həmçinin, mötəbər idman tədbirlərinə ev sahibliyi edən dünyanın tanınmış ölkələrindən biridir. Ölkəmizdə 2015-ci ildə ilk Avropa Oyunları və Bakıda 2016-cı ildə dünyada 500 milyon insanın izlədiyi Formula-1 Qran-Pri yarışları keçirilib. Bu il yenidən beynəlxalq idman aləminin diqqəti Azərbaycanda olacaq. 2017-ci ildə ölkəmizdə İslam Həmrəyliyi Oyunları keçiriləcək. İdman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə böyük töhfə verəcək bu tədbirlər həm də Azərbaycana gələn turistlərin sayını xeyli dərəcə artıracaq, bununla da ölkəmizdə turizm sektorunun inkişaf etdirilməsi işinə xidmət göstərəcək.

Mən əminəm ki, 2017-ci il Azərbaycan iqtisadiyyatının inkişaf ili olacaq. Biz səmərəli iqtisadi islahatların həyata keçirilməsini davam etdirəcəyik. Eyni zamanda, sosialyönümlü təşəbbüslərin maliyyələşdirilməsini artıracağıq. İqtisadiyyatın şaxələndirilməsi işi demək olar ki, başa çatmaqdadır. Hazırda ölkəmizin ümumi daxili məhsulunun 70 faizi qeyri-neft sektorunun payına düşür. Bu gün bizim qarşımızda duran əsas məqsəd ixracın şaxələndirilməsidir. 2016-cı ildə atdığımız addımlar bu məqsədə nail olunması işinə xidmət edəcək. Azərbaycan artıq Dünya İqtisadi Forumunun Qlobal Rəqabət Qabiliyyətliliyi İndeksinə görə 37-ci yerdədir (MDB ölkələri sırasında 1-ci yerdə) və biz bu uğuru daha da möhkəmləndirmək əzmindəyik.

# Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərə gəlib. Dövlətimizin başçısı İsveçrənin Davos şəhərində bir sıra mühüm görüşlər keçirib.

Yanvarın 16-da Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvabın adından Dünya İqtisadi Forumunda on dəfədən artıq iştirak edən rəhbər şəxslər üçün qəbul təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak edib. Dövlətimizin başçısı tədbir çərçivəsində Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşüb. Xatırladaq ki, ötən il Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab Dünya İqtisadi Forumunda onuncu dəfə iştirak etdiyinə görə Davos fəxri üzvlər klubunun nişanını Prezident İlham Əliyevə təqdim etmişdi.

Həmin gün dövlətimizin başçısının Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti ilə görüşü olub. S.Çakrabarti yenidən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti seçilməsində göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib və qarşıdakı dövrdə Azərbaycan ilə Bank arasında səmərəli fəaliyyətin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib. Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında çox yaxşı əlaqələrin olduğunu bildirərək bu əməkdaşlığı yüksək qiymətləndirib və müxtəlif layihələrin həyata keçirilməsi üzrə səmərəli əlaqələrin qurulduğunu deyib.

Söhbət zamanı son vaxtlar Azərbaycanda kənd təsərrüfatı, nəqliyyat, infrastruktur və digər sahələrdə layihələrin həyata keçirilməsi ilə bağlı əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu, bu layihələrin əlaqələrin inkişafına yeni imkanlar açdığı qeyd edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Davosda McKinsey şirkətinin qlobal idarəedici tərəfdaşı Dominik Barton ilə görüşüb. Görüşdə Azərbaycan ilə McKinsey şirkəti arasında əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı yanvarın 17-də Davosda «Procter and Gamble Europe» şirkətinin prezidenti Geri Edrü Kumbe ilə görüşüb. Görüşdə son vaxtlar Azərbaycanda gedən inkişaf proseslərinin ölkəmizə sərmayə cəlb olunmasına və turist axınına geniş imkanlar yaratdığı bildirilib. «Procter and Gamble Europe» şirkətinin Azərbaycan ilə yaxşı əlaqələri olduğu vurğulanıb və bu şirkətin ölkəmizlə əməkdaşlığın genişləndirilməsi baxımından bir sıra layihələrinin nəzərdə tutulduğu qeyd edilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Norveç Krallığının xarici işlər naziri Borge Brende ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Norveç arasında əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilib, Norveçin bir sıra şirkətləri, xüsusilə Statoil şirkəti ilə Azərbaycan arasında yaxşı əməkdaşlığın həyata keçirildiyi bildirilib. Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Yanvarın 17-də Azərbaycanın dövlət başçısı Davosda «Suez Group» şirkətinin baş icraçı direktoru Jan Lui Şasod ilə də görüşüb. Görüşdə Azərbaycan ilə Fransa arasında münasibətlərin yüksək səviyyədə olduğu qeyd edilib, Fransa şirkətlərinin ölkəmizdə böyük layihələr həyata keçirdiyi, bu layihələrdə «Suez Group» şirkətinin də yaxından iştirak etdiyi və bir çox layihələrin uğurla icra olunduğu vurğulanıb. Söhbət zamanı «Suez Group» şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrəyə işgüzar səfəri davam edir. Səfər çərçivəsində dövlətimizin başçısının ümumilikdə 30-a yaxın görüş keçirəcəyi nəzərdə tutulub.

# Dövlət sərhədlərimiz etibarlı mühafizə olunur

**Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşası başa çatdırılan sərhəd gözətçi gəmisində yaradılan şəraitlə tanış olub, «Tufan» tipli növbəti sərhəd gözətçi gəmisinin təməlini qoyub və xidməti istifadəyə verilən xüsusi təyinatlı texnikalara baxıb.**




Prezident İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində «Tufan» tipli növbəti sərhəd gözətçi gəmisinin təməlqoyma mərasimində iştirak edib, sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə baxıb, onların texniki göstəriciləri ilə tanış olub.

Dövlətimizin başçısı yeni inşa edilmiş «Tufan» tipli sərhəd gözətçi gəmisində yaradılan şəraitlə maraqlanıb. Yeni gəmi mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı kompleks, gecə-gündüz görmə müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən itisürətli qayıqlarla təchiz edilən və 62 metr uzunluğunda olan sərhəd gözətçi gəmisinin dəniz şəraitində göyərtəsinə helikopterin enməsi mümkündür. Yeni gəmidən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin edilməsi, karbohidrogen ehtiyatlarının hasilatı və nəqli, infrastrukturun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı istifadə olunacaq.

Prezident, Ali Baş Komandan İlham Əliyev Dövlət Sərhəd Xidməti üçün yeni alınan avtonəqliyyat vasitələri və digər xüsusi texnikalarla tanış olub, sərhəd gözətçi gəmilərinin keçidini izləyib.

BU NÖMRƏMİZDƏ


VERGİLƏR NAZİRLİYİNDƏ SEMİNAR KEÇİRİLİB 2

REGİONLARDA FƏALİYYƏT GÖSTƏRƏN SAHİBKARLAR MƏLUMATLANDIRILIR 3

ELEKTRON TİCARƏTİN VERGİYƏ CƏLB OLUNMASI 4

VERGİ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİKLƏR İCTİMAİYYƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR 5

# Vergilər Nazirliyində seminar keçirilib

Vergilər Nazirliyində ərazi vergi orqanlarının rəhbərləri və orta menecer heyəti üçün Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin icrası və yeni yaradılan strukturların iş prinsipinin mənimsənilməsinə dair üç günlük seminar keçirilib.




Yeni çağırışlara uyğun olaraq, ölkədə vergi mühitinin daha da yaxşılaşdırılması, qanunvericilikdə inzibatçılığın mükəmməlləşdirilməsi, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb

***Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev*** seminar iştirakçılarına məlumat verərək bildirib ki, ölkədəki vergi mühitinin daha da yaxşılaşdırılması, qanunvericilikdə inzibatçılığın mükəmməlləşdirilməsi, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb və Vergi Məcəlləsinə bir sıra ciddi dəyişikliklər edilib. Yeni çağırışlara uyğun olaraq, vergi xidmətinin strukturunda əsaslı islahatlar aparılıb, daha dinamik və müasir tələblərə cavab verən struktur formalaşdırılıb: «Bakı şəhərində və yerli vergi orqanlarında aparılan struktur dəyişikliklərinin mahiyyəti keçiriləcək bütün nəzarət tədbirlərinin risklər əsasında müəyyənləşdiriləcəyindən ibarət olacaqdır. Qarşıya qoyulan vəzifələrin keyfiyyətlə yerinə yetirilməsi üçün iki yeni departament yaradılıb. İstər regional, istərsə də sahibkarlarla iş departamentləri tərəfindən hər hansı yoxlama keçirilərkən bilavasitə əlaqəli olduğu vergi risklərinin araşdırılması və təhlili idarəsi ilə razılaşdırılmalıdır. Yerli vergi orqanlarında regional və kiçik sahibkarlarla iş departamentlərində yanaşmaların təhlili barədə məlumat-uçot bazaları yaradılıb. Vergi ödəyicilərinə münasibətlər, hər iki idarədə vergi ödəyicilərinə xidməti yanaşma nazirliyin xidmət departamenti tərəfindən həyata keçiriləcəkdir. Risklərin idarə edilməsi uçotun düzgünlüyündən asılı olduğu üçün burada uçot da önəmli məsələlərdəndir. Audit və vergi ödəyicilərinə münasibətdə operativ tədbirlərin həyata keçirilməsi ilə bağlı konkret yeni yanaşmalar mövcuddur».

***Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva*** Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə bağlı qeyd edib ki, son dəyişikliklər, əsasən, vergi ödəyicilərinin vergi yükünün azaldılması, onların hüquqlarının etibarlı şəkildə qorunması, ölkəmizdə daha əlverişli biznes mühitinin formalaşdırılması, vergi bazasının genişləndirilməsi hesabına dövlət büdcəsinə vergi daxilolmalarının artırılması ilə bağlıdır. Məcəlləyə bu və ya digər formada edilmiş dəyişikliklər islahatlarla sıx bağlıdır. Dəyişikliklərin əsas istiqamətlərindən biri vergi yükünün azaldılmasına yönəldilib. İcbari tibbi sığorta xidməti göstərən müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun, dövlət adından yaradılan səhiyyə (tibb) müəssisələrinin gəlirləri mənfəət vergisindən müddətsiz, buğdanın idxalı və satışı, buğda unu və çörəyin istehsalı və satışı, ilk dəfə olaraq quş ətinin satışı isə 3 il müddətində ƏDV-dən azad edilib. Məcəlləyə edilmiş digər dəyişikliklə kənd təsərrüfatı məhsullarının istehsal və emal məhsullarının sərhədi müəyyən olunub. Bununla əlaqədar Vergi Məcəlləsinə kənd təsərrüfatı məhsullarının istehsalı və satışı anlayışı daxil edilib».

S.Musayeva vergi azadolmaları ilə bağlı Məcəlləyə edilmiş dəyişikliklərdən kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması, topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicisinin meyarlarının təyin edilməsi, eləcə də sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim olunması ilə bağlı qaimə-faktura və ya elektron qaimə-fakturanın təqdim edilməsi, vergi öhdəliklərinin əvvəlcədən müəyyən olunması ilə bağlı seminar iştirakçılarına məlumat verib. E-auditin yaradılması, könüllü vergi açıqlaması, nağdsız hesablaşmalar, transfer qiymətlərin tənzimlənməsi, e-ticarət, vergi borclarının düzgün müəyyən edilməsi və büdcəyə qaytarılması haqqında dəyişikliklərlə bağlı ətraflı izahlar verilərək, yerli vergi orqanlarının qanunvericiliyin tətbiqi prosesini düzgün aparmalarının, son dəyişikliklər barədə vergi ödəyicilərinin məlumatlandırılmasının vacibliyi vurğulanıb.



***Vergi sahəsində aparılan struktur dəyişikliklərinin mahiyyəti ilə bağlı çıxış edən Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov*** bildirib ki, vergilər nazirinin 30 dekabr 2016-cı il tarixli əmri ilə nazirliyin bir sıra struktur bölmələrinin tərkibi, ştat vahidlərinin sayı və bölgüsü yenidən təsdiq edilib. Təşkilati strukturun «dövriyyə intervalları» üzrə bölgüsünün üstünlükləri qeyd edilib: «Vergi ödəyicilərinin klasterlər üzrə bölgüsü onlara münasibətdə vergi inzibatçılığını diferensiallaşdırmaqla daha səmərəli, effektli, çevik, ədalətli, şəffaf vergi nəzarətinin və vergi xidmətinin formalaşdırılmasına şərait yaradır. Bu cür təşkilati strukturda vergi inzibatçılığı və vergi nəzarəti daha səmərəli və keyfiyyətli həyata keçirilir. Bəyannamə formaları daha çeşidli olmaqla vergi ödəyicisinin bütün fəaliyyətini əhatə edir, vergidən yayınma riskləri fərdi və müfəssəl şəkildə, elmi əsaslarla aparılır, növbəti illər üzrə proqnoz müəyyən edilir, vergi nəzarəti tədbirləri, o cümlədən səyyar vergi yoxlamaları daha detallı və əhatəli həyata keçirilir».

Qeyd olunub ki, aparılan struktur islahatları Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamenti, Vergilər Nazirliyi yanında Bakı Şəhər Lokal Gəlirlər Departamenti, Vergilər Nazirliyi yanında Bakı Şəhər Kiçik Sahibkarlıqla İş Departamenti, Ərazi vergilər departamentləri üzrə Ərazi vergilər idarələrini əhatə edir.

**Ərazi vergi orqanları ilə iş üzrə departamentin baş direktoru Elçin Bəylərov** yerli vergi orqanlarında aparılan əsaslı funksional və struktur dəyişiklikləri barədə qeyd edib ki, müasir beynəlxalq təcrübə əsasında yenidən qurulan və yeni çağırışlara cavab verən təşkilati strukturda sahə təhkimçiliyi prinsipi aradan qaldırılıb, audit idarələri və operativ nəzarət şöbələri ləğv edilib: «Risklərin müvafiq qaydada müəyyən olunması üçün 19 fevral 2016-cı il tarixdə Vergilər Nazirliyinin mərkəzi aparatında Risklərin idarə edilməsi Baş İdarəsi yaradılıb. Qarşıda duran əsas vəzifələr - risklərin daha müasir formada müəyyənləşdirilməsi, bu yöndə atılacaq addımlar və tədbirlər, həmin tədbirlər vasitəsilə neqativ halların düzgün qiymətləndirilməsi, müəyyən edilmiş neqativ hallara hesablanmış tədbirlərə vahid mərkəzdən nəzarət qaydaları müəyyənləşdirilib. Yeni yaradılan strukturlar daha çox kiçik sahibkarlarla səmərəli işin qurulması və vergi ödəyicilərinə partnyorluq münasibətləri əsasında xidmətlərin göstərilməsi ilə məşğul olacaqlar ki, bu da vergi ödəyicilərinə xidmətin daha üst səviyyəyə qaldırılması deməkdir».

Həyata keçirilən dəyişikliklərin yerli vergi orqanlarının qarşısında mühüm vəzifələr qoyduğunu bildirən E.Bəylərov operativ vergi nəzarəti tədbirlərinin minimuma endiriləcəyini və nəzarətin daha çox risk modulları üzərindən həyata keçiriləcəyini qeyd edib, vergi qanunvericiliyinin tətbiqi prosesində, eləcə də vergi ödəyicilərinin məlumatlandırılması sahəsində görülməsi vacib olan təşkilati işlər barədə danışıb.

***Vergi qanunvericiliyinin icrasına nəzarət departamentinin baş direktoru Toğrul Quliyev*** qanunvericiliyin icrasına nəzarət strukturlarının iş prinsipləri, Vergi öhdəliklərinin icrasına nəzarət departamentinin baş direktoru Zeynalabdin Məmmədzadə vergi orqanlarının fəaliyyətinə nəzarət strukturlarının vəzifə və funksiyaları, daxili nəzarət sahəsində görüləcək işlər, habelə vergi amnistiyası barədə qanunvericilikdən irəli gələn vəzifələr və görülməli işlər barədə seminar iştirakçılarını məlumatlandırıblar.

***Seminarın ikinci günü ərazi vergi orqanlarının rəhbər vəzifəli şəxsləri qarşısında çıxış edən vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov*** yaxın günlər ərzində vergi orqanlarında görülməsi vacib olan konkret işlər barədə müvafiq tapşırıqlar verib və əmin olduğunu bildirib ki, vergi orqanlarının əməkdaşları vergi sistemində aparılan köklü islahatların mahiyyətinin vergi ödəyicilərinə çatdırılması üçün bilik və bacarıqlarını əsirgəməyəcək, ölkə başçısı cənab İlham Əliyevin vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin edəcəklər.

***Vergi sistemində aparılan islahatlarda vergi ödəyicilərinə xidmətin rolu ilə bağlı çıxış edən Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov*** bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamı ilə vergi sahəsində aparılacaq islahatların 21, vergi inzibatçılığının təkmilləşdirilməsinin 11 istiqaməti müəyyənləşdirilib: «Bizim görəcəyimiz işlər də çoxşaxəlidir. Bunlar ödəyici qrupundan asılı olaraq vergi bəyannamələrinin sadələşdirilməsinin aparılması, nümunəvi vergi ödəyicilərinin meyarlarının müəyyənləşdirilməsi, «Outbound Call Centre» (müştəriyə zəng xidməti) sisteminin tətbiqi, fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi formasında müəyyən edilməsindən ibarətdir. Bu tədbirlərin həyata keçirilməsində Ərazi vergilər departamentləri və idarələri, Kiçik sahibkarlıqla iş idarəsi, Regional gəlirlər idarəsi, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsi (şöbəsi), İqtisadi təhlil şöbəsi, Hüquq şöbəsi, Koordinasiya bölməsinin əməkdaşları birlikdə fəaliyyət göstərəcəklər».

Ə.Məmmədov vurğulayıb ki, artıq vergi ödəyicilərinin vergi uçotuna alınması müddəti azaldılaraq 1 gün müəyyən edilib: «Fiziki şəxslərin elektron (onlayn) qeydiyyatının stimullaşdırılması və uçot baza məlumatlarının aktuallığının təmin edilməsi məqsədilə vergi ödəyicilərinin vergi uçotunun bir gün ərzində həyata keçirilməsi üçün xidmət departamenti və «ASAN xidmət» mərkəzlərində çalışan vergi müfəttişlərinə (hüquqşünaslara) VÖEN şəhadətnamələrinin imzalanması səlahiyyəti veriləcəkdir». Qeyd olunub ki, 1 yanvar 2017-ci il tarixinə qeydiyyatdan keçənlərin 42,6%-i hüquqi şəxslər, 18,9%-i isə fiziki şəxslərdir.

Seminar iştirakçılarına vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq müstəvisində inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, «Yaşıl dəhliz» prinsipinin üstünlükləri, partnyor vergi ödəyicilərinə göstərilən ənənəvi və innovativ üsullara söykənən fərdi və sürətli ünvanlı xidmətlər, yenidən formalaşdırılmış xidmət strukturları qarşısında duran əsas vəzifələr barədə məlumat verilib. Bütün xidmətlərin ünvanlı olacağı və yeni fəaliyyətə başlayanlara dəstək üçün təlimlərin keçiriləcəyi diqqətə çatdırılıb.

***Vergilər Nazirliyinin Tədris Mərkəzinin elmi-metodoloji kafedrasının müdiri Malik Əkbərov*** bildirib ki, Vergi Məcəlləsinə edilmiş 123 dəyişiklik vergi inzibatçılığının təkmilləşdirilməsinə, uçot siyasətinin şəffaflaşdırılmasına; 34 dəyişiklik vergi ödəyicisinin hüquqlarının genişləndirilməsinə; 8 dəyişiklik isə vergi yükünün azaldılmasına yönəldilib. Vergi qanunvericiliyində yeni anlayışların yaranması ilə bağlı da tədbir iştirakçılarına məlumat verilib.

Seminar ərzində nazirliyin məsul vəzifəli şəxsləri ərazi vergi orqanlarının və xidmət strukturlarının nümayəndələri ilə fərdi söhbətlər aparıb, təqdimatlar dinlənilib, əməkdaşları maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

**Fəxriyyə İKRAMQIZI**

# Pilot model müəssisənin yaradılması nəzərdə tutulur

«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə sənayeyönümlü kiçik və orta sahibkarlıq (KOS) subyektlərinin istifadə edə bilməsi üçün pilot model müəssisənin yaradılmasının nəzərdən keçiriləcəyi bildirilir. Bu istiqamətdə model müəssisə ilə bağlı beynəlxalq təcrübə təhlil olunacaq, model müəssisə üçün seçiləcək sektor, müəssisənin böyüklüyü, yerləşəcəyi yer və işçi heyətinə aid məsələlər müəyyən ediləcək. Keçmiş Sovet İttifaqı dövründən qalmış qeyri-işlək zavodlar qiymətləndiriləcək və model müəssisə üçün ən uyğun olanlar seçiləcək (hər hansı münasib aktiv müəyyən edilmədikdə, yenisinin tikintisi nəzərdən keçiriləcək).

Bu layihənin reallaşdırılması üçün müvafiq işçi qrup yaradılacaq. Model müəssisənin maliyyələşdirilməsi metodu (özəl şirkətlərdən və ya dövlətdən) ilə bağlı qərar verildikdən sonra tender vasitəsilə müəssisənin qurulması və işə salınmasını həyata keçirəcək təchizatçı müəyyənləşdiriləcək. Müəssisə KOS subyektlərinin işçilərinin praktiki bacarıqlarının artırılması üçün platforma rolu oynayacaq.

Model müəssisənin yaradılması ilə bağlı məlumatlar seçilmiş pilot sektordakı şirkətlərə çatdırılacaq. Həmin şirkətlərin belə müəssisənin üstünlükləri və faydaları haqqında məlumatlandırılması məqsədilə təşkil ediləcək seminarlarda qabaqcıl təcrübələr müzakirə olunacaq. Azərbaycanda KOS subyektlərinin ən yüksək sıxlığa malik olduğu sənaye zonasında model müəssisələrin yaradılması təmin ediləcək. İlk model müəssisə pilot layihə kimi potensial olaraq Bakı regionunda yerləşəcək. İlkin məqsəd bir il ərzində ən azı 100 kiçik və orta sahibkarlıq subyektinə xidmət edə biləcək müəssisənin yaradılmasından, KOS subyektlərinə təlimlər keçəcək beynəlxalq mütəxəssislər cəlb etməklə iştirakçı kimi seçilmiş həmin 100 şirkətin qənaətli istehsal bacarıqlarının təkmilləşdirilməsindən ibarət olacaq.

Müəssisənin qurulması ilkin planlaşdırmadan başlayaraq, birinci təlimin keçirilməsi üçün tələb olunan bütün zəruri avadanlıqların çatdırılması və quraşdırılması da daxil olmaqla reallaşdırılacaq. Burada əsas tərəflər sənaye assosiasiyalarından, özəl qurumlardan, universitetlərdən və digər maraqlı subyektlərdən ibarət olacaq. Maliyyə vəsaiti büdcədən, sponsorlardan, KOS subyektlərinin qəbulu üçün ödənilən xidmət haqlarından təmin ediləcək.

Model müəssisədən faydalanacaq KOS subyektləri ilə mütəmadi koordinasiya aparılacaq və onların rəyləri öyrəniləcək. Şirkətlərlə ildə iki dəfə görüşlər keçiriləcək və model müəssisənin faydalı olub-olmaması barədə onların fikirləri, eləcə də bu istiqamətdə təkmilləşdirmə ilə bağlı təklifləri öyrəniləcək. Maraqlı şirkətlərə model müəssisənin təcrübəsi əsasında qənaətli iş modellərinin tətbiqinin nəticələrinə dair rüblük hesabat təqdim etmələri üçün müraciət olunacaq və bu hesabat əsasında həmin nəticələr seçilmiş ölkələrin təcrübəsi ilə müqayisə edilərək model müəssisənin effektivliyi qiymətləndiriləcək.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi

# Regionlarda fəaliyyət göstərən sahibkarlar məlumatlandırılır

Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış və 2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minmiş «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» qanunların şərh edilməsi, vergi qanunvericiliyində baş vermiş dəyişikliklərin regionlarda fəaliyyət göstərən sahibkarlara və iş adamlarına bilavasitə çatdırılması məqsədilə Vergilər Nazirliyi ölkənin regionlarında vergi ödəyiciləri ilə görüşlərə başlayıb. İlk görüş Quba şəhərində, 3 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Xaçmaz, Quba, Qusar və Şabran rayonlarının, ikinci görüş isə Qəbələ şəhərində, 10 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Qəbələ, İsmayıllı və Oğuz sahibkarları ilə olub.



Görüşlərdə çıxış edən vergilər nazirinin müavini Sahib Ələkbərov bu il Vergi Məcəlləsinə həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi dəyişikliklərin edildiyini bildirib. Qeyd olunub ki, bu dəyişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şərait yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının daha etibarlı qorunması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf uçotun qurulmasıdır.

Nazir müavini vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərdən 1 aprel 2017-ci ildən, bütün digər vergi ödəyicilərindən isə 1 yanvar 2018-ci ildən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim olunması ilə bağlı Məcəlləyə yeni maddə əlavə olunduğunu bildirərək vurğulayıb ki, bu dəyişiklik sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edəcəkdir.

Sahib Ələkbərov ölkə başçısının təşəbbüsü ilə qəbul olunmuş «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Qanunun əhəmiyyətinə toxunaraq bildirib ki, bu, sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılmasına, onların sərəncamında əlavə vəsaitlərin qalmasına, sahibkarlığın inkişafının stimullaşdırılmasına və daha əlverişli biznes mühitinin formalaşdırılmasına xidmət edir. Nazir müavini yaranmış borclar üzrə hesablanmış faizlərin və Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən hesablanmış maliyyə sanksiyalarının tam silinəcəyini, digər maliyyə sanksiyaları üzrə isə müəyyən edilmiş şərtlər daxilində silinmələrin nəzərdə tutulduğunu bildirib, sahibkarları bu qanunun yaratdığı imkanlardan maksimum yararlanmağa çağırıb.

Görüşlərdə çıxış edən Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri Vergi Məcəlləsində edilmiş əlavə və dəyişikliklərin ətraflı izahını verib, bu dəyişikliklərin mahiyyəti və qanunun tətbiqi ilə bağlı məsələlər barədə vergi ödəyicilərini məlumatlandırıblar.

Sonda tədbirdə iştirak edən vergi ödəyicilərinin çoxsaylı sualları cavablandırılıb.



# Vergi borclarının silinməsi dövlətin sahibkarlara növbəti dəstəyidir

Prezident İlham Əliyevin «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi barədə imzaladığı fərmana əsasən, Vergilər Nazirliyinə qanunun 1-ci, 2.1-ci, 2.2.1-ci, 2.2.2-ci və 2.2.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətləri verilib. Bir sıra orqanlara isə bu qanundan irəli gələn digər məsələlərin həll edilməsi tapşırılıb.

Qanun vergi ödəyicilərinin vergilərinin vaxtında ödənilməməsinə görə hesablanmış faizlər üzrə borclarının tənzimlənməsini nəzərdə tutur. Sənədə əsasən, vergi ödəyicilərinin vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7-ci maddəsi üzrə tətbiq edilən maliyyə sanksiyalarına görə yaranmış borcları silinir.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov vergi borclarının silinməsinin aşağıdakı qaydada həyata keçirildiyini bildirib:

- vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar ayı ərzində həmin maliyyə sanksiyalarının 30%-i ödənildikdə maliyyə sanksiyalarının ödənilməmiş 70%-i müvafiq icra hakimiyyəti tərəfindən silinəcək;
- vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50%-i ödənildikdə maliyyə sanksiyalarının ödənilməmiş 50%-i müvafiq icra hakimiyyəti tərəfindən silinəcək;
- vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində maliyyə sanksiyalarının 70%-i ödənildikdə isə maliyyə sanksiyalarının ödənilməmiş 30%-i müvafiq icra hakimiyyəti tərəfindən silinəcək.

N.Şirinovun sözlərinə görə, vergi borcları iki hissəyə bölünüb: birincisi vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlərdir, ikincisi isə maliyyə sanksiyalarının müəyyən ardıcıllıqla silinməsidir. Sanksiyalar daha çox nağd əməliyyatların aparılması qaydalarının pozulmasına görə nəzərdə tutulan vəsaitlərdir, həmin sanksiyaların məbləğindən asılı olmayaraq silinməsi nəzərdə tutulur. Vergi Məcəlləsinin 58-ci və digər maddələrində müəyyənləşdirilmiş maliyyə sanksiyaları isə müəyyən ardıcıllıq üzrə silinəcək.

«Vergi amnistiyası» ümumilikdə 44 min 704 vergi ödəyicisini əhatə edəcək. Faizlərin silinməsi nəticəsində 386,4 milyon manat borc silinəcək. Bu məbləğin 125,5 milyon manatı dövlət, 260,9 milyon manatı isə qeyri-dövlət sektoruna aiddir. Bununla yanaşı, 2017-ci il yanvarın 1-də nağd pul hesablaşmalarının qaydalarının pozulmasına görə 6 min 304 vergi ödəyicisinin 3 milyon manat məbləğində maliyyə sanksiyasının silinməsi nəzərdə tutulur. Faizlərdən əlavə, digər maliyyə sanksiyaları ilə bağlı yanvar, fevral, mart ayları ərzindəki ödənişlərinə adekvat olaraq, qalan vəsaitlərin silinməsi nəticəsində 13 min 780 vergi ödəyicisinin 234 milyon manat məbləğində borcunun ləğvi gözlənilir. Ümumilikdə 44 min 704 vergi ödəyicisi üzrə 624 milyon manat vəsait silinəcək.

Vergi borclarının regionlar üzrə strukturuna nəzər saldıqda faizlər üzrə Bakı şəhərinə aid 288,3 milyon, regionlara aid isə 98 milyon manat faiz məbləğ silinəcək. Qalan 237 milyon manat maliyyə sanksiyası üzrə Bakı şəhərində qeydiyyatda olan vergi ödəyicilərinin ödəməli olduqları 138,5 milyon manat, regionlarda qeydiyyatda olan vergi ödəyicilərinin ödəməli olduqları 98,5 milyon manat vəsait silinəcək.

N.Şirinov vurğulayıb ki, borcun silinməsinə dair qaydalar 2017-ci ilin yanvar ayının 1-dək mövcud olan maliyyə sanksiyalarına şamil ediləcək. Cari ilin yanvar-mart ayları ərzində yaranacaq maliyyə sanksiyalarına görə borcların silinməsi isə nəzərdə tutulmur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, qanun sahibkarlığın inkişafının stimullaşdırılmasına, əlverişli biznes mühitinin formalaşdırılmasına və vergi yükünün optimallaşdırılmasına hesablanıb: «Bu cür xoşniyyətli bir qərarın qəbulu vergi borcu olanların vergi yükünün azaldılması üçün mühüm rol oynaya bilər. Silinəcək borcun məbləği kifayət qədər böyükdür, bu həcmdə vəsaitin sahibkarların özlərində qalması təkrar maliyyələşmə mənbəyinin yaranmasına səbəb olacaq. Dövlətin bu siyasəti sahibkarlığa növbəti dəstəyin nümunəsi hesab oluna bilər».

Millət vəkilinin sözlərinə görə, indiyədək sahibkarlara bir sıra vergi güzəştləri verilib. Onlardan ən mühümü ötən il, 2016-cı il iyunun 1-də qüvvəyə minən Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərdir. Həmin dəyişikliklərə əsasən, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmuş sahibkarlar cinayət məsuliyyətindən azad ediliblər: 20.000 manata qədər olan vergi ödənişlərindən yayınan şəxslər cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb edilirlər. Həmin məbləğ, yəni cinayət nəticəsində əldə edilmiş gəlir tamamilə dövlət büdcəsinə köçürüldükdə, sahibkar cinayət məsuliyyətindən azad olunur. Bu, sahibkarlar üçün «iqtisadi amnistiya» hesab edilə bilər. Bundan başqa, hökumət 2016-cı ildə sahibkarlıq fəaliyyətinə digər güzəştlər etməklə iş adamlarının fəaliyyətinin stimullaşdırılmasına geniş şərait yaradıb. Əvvəllər hansısa sahibkarlıq subyektinin dövriyyəsinin gizlədilməsinə görə yüksək cərimələr və həbs cəzası tətbiq olunurdusa, 2016-cı ilin ortalarından başlayaraq cəzalar xeyli yüngülləşdirildi. Böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad olunurlar.

Millət vəkili Əli Məsimli vergi amnistiyasının, bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da maliyyə amnistiyası ilə tamamlanmasını vacib sayır. Onun fikrincə, bu halda, xüsusilə də indiki zamanda iqtisadiyyata maliyyə vəsaiti qoymaq nöqteyi-nəzərindən xeyli əlavə imkanlar yarana bilər.

**Elbrus CƏFƏRLİ**




# Ölkə üzrə yaşayış minimumunun səviyyəsi artırılıb

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2017-ci il üçün təsdiq olunmuş yaşayış minimumu ölkə üzrə 155 manat, əmək qabiliyyətli əhali üçün 164,5 manat, pensiyaçılar üçün 130,2 manat, uşaqlar üçün 136,6 manat məbləğində müəyyən edilmişdir.

Müqayisə üçün qeyd edək ki, 2016-cı il üçün yaşayış minimumu ölkə üzrə 136 manat, əmək qabiliyyətli əhali üçün 146 manat, pensiyaçılar üçün 115 manat, uşaqlar üçün 117 manat məbləğində müəyyən edilmişdi.

İnsan sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş dəyəri və icbari ödənişlər toplusu yaşayış minimumunu təşkil edir. «Yaşayış minimumu haqqında» Qanunun 5.1-ci maddəsinə əsasən, ölkə üzrə təsdiq edilmiş yaşayış minimumu əməkhaqqının minimum məbləğinin, pensiyaların baza hissəsinin, müavinətlərin, təqaüdlərin, digər ödənişlərin və ünvanlı sosial yardımın təyin edilməsi məqsədilə ehtiyac meyarının müəyyən olunmasının əsasını təşkil edir. Ehtiyac meyarı əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımın təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il təsdiq olunan həddir. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2017-ci il üçün ehtiyac meyarının həddi 116 manat məbləğində təsdiq edilmişdir. Ötən il isə bu məbləğ 105 manat idi...

Yaşayış minimumunun artırılması fiziki şəxslərin gəlir vergisinin tutulmasında da müəyyən dəyişikliklərə səbəb olur. Xatırladaq ki, Vergi Məcəlləsinə əsasən, fiziki şəxslərin ödəmə mənbəyindən vergiyə cəlb olunan gəlirlərindən vergi aşağıdakı cədvələ uyğun olaraq hesablanır və dövlət büdcəsinə ödənilir.

| Vergi tutulan aylıq gəlirin məbləği | Verginin məbləği |
|---|---|
| 2500 manatadək | 14 faiz |
| 2500 manatdan çox olduqda | 350 manat + 2500 manatdan çox olan məbləğin 25 faizi |

2017-ci il üçün ölkə üzrə yaşayış minimumunun 155 manat müəyyən edilməsi ilə fiziki şəxsin muzdlu işlə əlaqədar əldə etdiyi əməkhaqqı, fayda və gəlirdə ödəniləcək vergi ilə bağlı müəyyən dəyişiklik olacaq. Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə uyğun olaraq, fiziki şəxs əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 30.000 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azad edilir.

***Misal:*** *Vəzifə maaşı 355 manat olan fiziki şəxsin indiyə qədər olan əmək haqqından vergi 30,66 manat təşkil edib:*

*355-136=219*

*219*14%=30,66*

*Yaşayış minimumunun artırılmasından sonra əməkhaqqından vergi tutulan məbləğ 28 manat olacaq:*

*355-155=200;*

*200*14%=28.*

Beləliklə, yaşayış minimumunun artırılması ilə əlaqədar olaraq, əsas iş yerində vəzifə maaşı 355 manat olan fiziki şəxsin aylıq gəlirindən tutulan vergi 2 manat 66 qəpik azalmış olacaq.

**Rəşad SADIQOV**

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqlərində mövcud olan borclar tamamilə silinir.

Vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı qaydada silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar ayı ərzində həmin maliyyə sanksiyalarının 30 faizi ödənilərsə, qalan 70 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

**Maliyyə sanksiyasının məbləğini 143490 büdcə təsnifatı kodu üzrə ödəməyiniz xahiş olunur**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet səhifəsinə (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Lotereya uduşları üçün vergi öhdəliyi

***İnternet vasitəsilə qeyri-rezident tərəfindən onlayn qaydada təşkil edilən lotereyada iştirak üçün qeyri-rezident şəxsə bank hesabımdan pul köçürülən zaman ƏDV hesablanırmı? Həmin lotereyada əldə etdiyim uduşlar bank hesabıma köçürülən zaman hansı vergi öhdəliyim yaranır?***

Vergi Məcəlləsinin (VM) 101.5-ci maddəsinə əsasən, idman oyunları ilə əlaqədar aparılan mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti (pul qoyuluşu) çıxılmaqla qalan məbləğdən (Azərbaycan Respublikasının hüdudlarından kənarda təşkil edilən mərc oyunlarından, yarışlardan və müsabiqələrdən əldə edilən nağd pul vəsaiti istisna olmaqla) 10 faiz dərəcə ilə vergi tutulur.

VM-in 169.1-ci maddəsində qeyd olunur ki, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində Vergi Məcəlləsinin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), XI fəslin məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb edilir.

Elektron ticarət qaydasında işlərin və xidmətlərin alıcısı, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil edilən lotereyaların, digər yarışların və müsabiqələrin iştirakçısı vergi orqanlarında uçotda olmayan şəxs olduqda ödənişi aparan yerli bank və ya xarici bankın Azərbaycan Respublikasındakı filialları tərəfindən hesablanan ƏDV alıcının vəsaiti hesabına büdcəyə ödənilir (VM, maddə 169.3).

**Qeyd olunanlara əsasən:**

Qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereya, yarış və müsabiqələrdə iştirakla bağlı ödənilən vəsaitə 18 faiz dərəcə ilə ƏDV tətbiq edilir. Eyni zamanda, lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru daxil olan uduş məbləğindən iştirakla bağlı ödənilən pul vəsaiti çıxılmaqla qalan məbləğdən 10 faiz dərəcə ilə vergi tutur.

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin yanvar və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin yanvar və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Ötən ilə nəzər salanda...

Ölkəmizin vergi sistemində tətbiq edilən yeniliklər, həyata keçirilən layihələr ictimaiyyət tərəfindən maraqla qarşılanır. Ötən il də vergi sistemində bir sıra tədbirlər həyata keçirilib.

### «Tax free» Azərbaycana gəldi

2016-cı ilin iyulundan ölkəmizdə turistlər tərəfindən alınmış mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) tam və ya qismən geri qaytarılması sisteminin - «Tax free»nin tətbiqinə başlandı. Bu sistemin tətbiqi ölkəyə xarici turistlərin marağının artırılması, turizmin inkişafında davamlılığın təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi məqsədini daşıyırdı. «Tax free» sistemi üzrə operator səlahiyyətlərini Vergilər Nazirliyi həyata keçirir. «Tax free» stikerləri olan mağazalarda istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulan mallar istisna olmaqla alınan digər mallara görə ödənilən ƏDV-nin məbləği xarici vətəndaşlar ölkəni tərk etdiyi zaman onlara hava limanında geri qaytarılır.

Ötən il «Tax free» layihəsinin tətbiqinin ilkin mərhələsində bu sistemə qoşulmuş obyektlərin nümayəndələrinin məlumatlandırılması məqsədilə 14 vergi ödəyicisinə məxsus 105 təsərrüfat subyektində, eləcə də Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində təlimlər təşkil edilmiş, təlim zamanı sistemin tətbiqi və bu məqsədlə malların satışının rəsmiləşdirilməsi proseduru satıcılara izah edilmiş, «İnternet vergi idarəsi»ndə yaradılmış müvafiq proqram təminatında işləmə qaydaları, e-VHF-nin tərtibi və alıcılara təqdim olunması əyani nümayiş etdirilmişdir. Ölkəyə gələn turistlər üçün Azərbaycan, rus və ingilis dillərində bələdçi buklet hazırlanmış və 6 min tirajla nəşr etdirilərək xarici vətəndaşlara təqdim olunması üçün hava limanlarında yaradılmış guşələrdə yerləşdirilmişdir. Bundan əlavə, «Tax free» sisteminə aid bütün zəruri məlumatları üç dildə özündə əks etdirən və domen adı «www.taxfree.az» olan internet saytı yaradılmışdır. Saytda «Tax free» sistemi şamil olunmayan mallar və şəxslər, sistemə qoşulmaq istəyən vergi ödəyicilərinə qarşı əsas tələblər, sistemə qoşulmaq üçün qeydiyyat və qeydiyyata alınmış təsərrüfat subyektlərində (obyektlərində) malların satışının rəsmiləşdirilməsi prosedurları, «Tax free» sisteminə qoşulmuş təsərrüfat subyektləri (obyektləri) barədə yenilənmiş məlumatlar, o cümlədən təsərrüfat subyektlərinin (obyektlərinin) ünvanları xəritə şəklində yerləşdirilmişdir. Bunlarla yanaşı, qaytarılacaq məbləğin hesablanması üçün «Tax free kalkulyatoru» hazırlanmışdır.

> Vergi ödəyicilərinin məlumatlandırılması, o cümlədən müvafiq bildirişin onların elektron qutularına, mesajın isə mobil nömrələrinə göndərilməsi məqsədilə Vergilər Nazirliyi yanında Çağrı Mərkəzi Departamenti tərəfindən 497 vergi ödəyicisinə 450 SMS göndərilmişdir. Yerli vergi orqanlarının vergi ödəyicilərinə xidmət strukturları tərəfindən vergi ödəyicilərinin e-qutularına bildirişlər göndərilmiş, 27 sayda ünvanlı xidmət göstərilmiş, 195 vergi ödəyicisi ilə 9, 116 bələdiyyə üzvü ilə 8, «Vergi dostları» şəbəkəsinin 163 üzvü ilə 8 görüş keçirilmişdir.

### «Elektron cinayət işi»...

Daha bir maraqlı layihə isə ötən ilin noyabrında Vergilər Nazirliyi tərəfindən tətbiqinə başlanılan «Elektron cinayət işi» moduludur. Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) «Elektron cinayət işi» modulu hazırlanması üçün bu sahədə tətbiq olunan uğurlu beynəlxalq təcrübə öyrənildi. Modulun yaradılmasında məqsəd vergi hüquqpozmalarına və cinayətkarlığa qarşı mübarizə sahəsində təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti (VCİAD) tərəfindən aparılan istintaq işlərinin sürətinin və keyfiyyətinin artırılması, vahid elektron statistik uçot bazasının yaradılması, əlavə inzibatçılıq tədbirlərinin minimuma endirilməsi, iş vaxtına qənaət edilməsi, insan resurslarından daha səmərəli istifadə olunmasıdır. Bu modul ibtidai istintaqı Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlər üzrə cinayət xarakterli faktları əks etdirən materialların Departamentə göndərilməsi, Departamentdə aparılan ibtidai araşdırma zamanı qərar, vəsatət, məktub və digər sənədlərin elektron formada hazırlanması məqsədilə yaradılmış, özündə daha geniş və dəqiq məlumatları əks etdirən, operativ axtarış imkanlarına malik olan cinayət işlərinin vahid elektron sistemidir. «Elektron cinayət işi» modulunun tətbiqi ilə bağlı ibtidai araşdırma zamanı qəbul oluna biləcək prosessual qərar, vəsatət və onları müşayiət edən məktubların, nazirlikdaxili məktubların (sorğuların), digər qurumlara göndəriləcək məktubların (sorğuların), ümumilikdə 100-dən artıq sənədin nümunəvi formaları hazırlanıb.

### Risklər vahid mərkəzdən idarə edilir

Ötən il vergi ödəyicilərinin risk meyarları üzrə qiymətləndirilməsi və vahid mərkəzdən idarə edilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində «Risklərin vahid mərkəzdən idarə edilməsi» alətinin tətbiqinə başlanıldı. «Risklərin idarə edilməsi» aləti müasir texnologiyalara əsaslanaraq vergidən yayınma hallarını aşkar etməklə onların elektron qaydada idarə olunmasını, mövcud risklərin daha dəqiq qiymətləndirilməsini və vergi potensialının düzgün dəyərləndirilməsini təmin edir. Alət istər elektron, istərsə də digər vasitələrlə aşkar olunmuş hər bir vergidənyayınma halının dəqiqliklə yoxlanılmasına, onun vergi nəzarəti tədbiri baxımından düzgün qiymətləndirilməsinə və aşkar edilmiş hallar üzrə daha səmərəli vergi nəzarəti tədbirinin seçilməsinə imkan verir. Bununla da vergidən yayınan hər bir vergi ödəyicisinin vergi nəzarəti tədbirlərindən kənarda qalması hallarının aradan qaldırılması, habelə heç bir risk meyarına əsaslanmayan vergi nəzarəti tədbirlərinin keçirilməsinin qarşısı alınmış olur.

«Risklərin idarə edilməsi» aləti vasitəsilə aşkar edilmiş risk üzrə hər şeydən əvvəl onun dürüstlüyü qiymətləndirilərək vergitutma baxımından mövcud potensial qiymətləndirilir. Bundan sonra aşkar edilmiş vergidənyayınma halının növünə uyğun olaraq 3 növ (kameral vergi yoxlaması, səyyar vergi yoxlaması və ya operativ vergi nəzarəti tədbiri) vergi nəzarəti tədbirindən biri seçilir və onun icrası avtomatik olaraq həmin alət vasitəsilə qeydiyyat prinsipi nəzərə alınmaqla müvafiq vergi orqanına həvalə edilir. Vergi nəzarəti tədbirlərinin təyin olunması «Risklərin idarə edilməsi» aləti vasitəsilə həyata keçirildiyindən, həmin yoxlamalara vahid mərkəzdən nəzarət edilir. Beləliklə, yerli vergi orqanları tərəfindən müvafiq risk meyarına əsaslanmayan, qiymətləndirmə nəticəsində vergidənyayınma ehtimalı olmayan vergi yoxlamalarının qarşısı tamamilə alınır.

### Və ilin son layihəsi - «Yaşıl dəhliz»

Ötən ilin dekabrında ictimaiyyətə təqdim edilmiş «Yaşıl dəhliz» layihəsi şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyiciləri üçün fərdi və sürətli xidmətlərin göstərilməsini əhatə edir. Vergi hesabatlarını Vergi Məcəlləsində nəzərdə tutulmuş müddətlərdə təqdim edən, vergiləri tam həcmdə və vaxtında ödəyən, muzdlu işçilərinin sayını və əmək haqlarını düzgün bəyan edən, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına əsasən aparan, gücləndirilmiş elektron imzaya sahib olan və yazışmaların elektron şəkildə aparılmasına üstünlük verən, saxta sənədlər (o cümlədən ciddi hesabat sənədləri) qəbul və təqdim etməyən, son 3 il ərzində iqtisadi sahədə cinayətin törədilməsinə görə barəsində cinayət təqibi aparılmayan vergi ödəyiciləri «partnyor vergi ödəyicisi» statusu əldə edəcəklər. Partnyor vergi ödəyicilərinə ənənəvi, innovativ və xidmət mərkəzlərində göstərilən xidmətlər təqdim olunacaq. Bunlarla yanaşı, partnyor ödəyicilər vergi qanunvericiliyi və inzibatçılığında baş verən dəyişikliklər və vergilərlə bağlı digər məsələlər barədə məlumatlandırılacaqlar.

«Yaşıl dəhliz»ə həm Vergilər Nazirliyinin, həm də vergi ödəyicisinin təşəbbüsü ilə qoşulmaq mümkün olacaq. Partnyor vergi ödəyicilərinin vergi qanunvericiliyinin tətbiqi, ziddiyyətli məqamların aydınlaşdırılması, vergi nəzarəti tədbirləri, vergi orqanları tərəfindən göstərilən xidmətlər və digər məsələlərlə bağlı uçotda olduğu vergi orqanına etdiyi müraciətləri xüsusi nəzarətə götürüləcək, Vergi Məcəlləsinə və «İnzibati icraat haqqında» Qanuna uyğun olaraq müəyyən edilmiş müddətdən 3 dəfə az olmaqla baxılacaq. Partnyor ödəyicinin müraciətinə baxılması zamanı yaranan fikir ayrılıqları həmin vergi ödəyicisinin iştirakı ilə Vergilər Nazirliyi tərəfindən vergi ödəyicisinin istəyinə uyğun olaraq onun iş yerində və ya vergi orqanında aydınlaşdırılır, həmçinin ortaya çıxan məsələlər İKT-nin imkanlarından istifadə edilməklə, o cümlədən video bağlantı qurmaqla müzakirə ediləcək. Layihənin tətbiqinə isə bu ildən başlanılacaq.

**Aytən NƏBİYEVA**

# Elektron ticarətin vergiyə cəlb olunması

Azərbaycanda elektron ticarətin vergiyə cəlb edilməsi ilə bağlı Vergi Məcəlləsində və «Elektron ticarət haqqında» Qanunun 1-ci və 5-ci maddələrində müvafiq əlavə və dəyişikliklər edilmişdir.

«Elektron ticarət haqqında» Qanunda edilmiş dəyişikliklər, əsasən, elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini, elektron ticarətin əsas iştirakçılarından olan kart təşkilatının təcrübədə geniş tətbiq edilən «pul kisəsi» anlayışını, habelə elektron ticarətin iştirakçısı olan satıcıya dair tələbləri müəyyən edən normaları əks etdirir. Dəyişikliklərlə qanuna rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb olunmasının işlək mexanizmini müəyyən edən müddəalar əlavə edilmişdir.

Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktor müavini Nicat İmanov bildirmişdir ki, Vergi Məcəlləsinin 16.1.11-1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna uyğun olaraq, POS-terminalların quraşdırılmasını və (və ya) «Elektron ticarət haqqında» Qanuna uyğun olaraq satıcı kimi fəaliyyət göstərdikdə istehlakçılara elektron ödəniş etmək imkanı yaratmaq vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Vergi Məcəlləsinin 168.1.5-ci maddəsinə edilmiş əlavəyə əsasən, elektron ticarətin satıcıları (təchizatçıları) tərəfindən işlər və xidmətlər təqdim edildiyi, habelə elektron qaydada təşkil olunan lotereyalar, digər yarışlar və müsabiqələr keçirildiyi halda, işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda, Vergi Məcəlləsinin 169.1-ci maddəsinə edilmiş əlavəyə əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezident Azərbaycan Respublikasının ərazisində Vergi Məcəlləsinin 169.2-ci və ya 169.5-ci maddələrində adı çəkilən vergi agenti üçün xidmət göstərirsə və ya iş görürsə (o cümlədən elektron ticarət qaydasında Azərbaycan Respublikasının hüdudlarından kənarda otel xidmətlərinin və aviabiletlərin sifarişi üzrə xidmətlər istisna olmaqla, işlərin görülməsi və xidmətlərin göstərilməsi), ƏDV məqsədləri üçün işlərin görülməsi və ya xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb olunur».

Vergi Məcəlləsinin 169.3-cü maddəsinə edilmiş əlavələrə əsasən isə ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən qeyd olunan maddə ilə müəyyən edilmiş qaydada qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı və ödənilməlidir.

«TuranBank»ın İnformasiya texnologiyaları departamentinin direktoru Bəxtiyar Məmmədovun rəyinə görə, son dövrlərdə elektron ticarət dövriyyəsinin həcminin artması ilə əlaqədar bu sahədə vergi qanunvericiliyinin də təkmilləşdirilməsinə zərurət yaranmışdı: «Elektron ticarət zamanı vergitutmanın tətbiq edilməməsi vergi ödəyiciləri arasında müxtəlif yanaşmalara səbəb olurdu. Bu zərurətdən irəli gələrək, vergi qanunvericiliyində də elektron ticarətdə vergi tutulması ilə bağlı bir sıra dəyişikliklər edilmişdir. Dəyişikliklərə əsasən, rezident şəxslər qeyri-rezidentlər tərəfindən yaradılmış elektron pul kisələrinə pul köçürərkən 10 faiz məbləğində vergi tutulacaqdır. Həmçinin müxtəlif növ iş və xidmətlərin elektron resurslar vasitəsilə alıcılarının, müxtəlif yarış və lotereya iştirakçılarının əlavə dəyər vergisinin ödənilməsini təmin etməli olmaları vergi qanunvericiliyinə dəyişikliklərdə öz əksini tapmışdır. Bu dəyişiklikləri bir qədər sadə formada izah etsək, belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının vətəndaşları ölkədə fəaliyyət göstərən bankların plastik kartları ilə ölkədən kənarda təşkil edilmiş müxtəlif lotereya oyunlarında iştirak edərkən, xaricdə müxtəlif iş və xidmətlər alarkən banklar bu şəxslərin kart hesablarından avtomatik olaraq ƏDV ödənilməsini təmin edəcəklər, onların plastik kart hesablarından avtomatik olaraq 18% ƏDV tutulacaqdır. Onu da qeyd etmək lazımdır ki, bu vergilər Azərbaycan Respublikası rezidentlərinin xarici ölkələrdən elektron ticarət yolu ilə hər hansı mal alışlarına deyil, məhz iş və xidmətlərin əldə edilməsinə görə tətbiq olunacaqdır. Lakin hazırda vergilərin bu qaydalara uyğun şəkildə tutulması ilə bağlı bir sıra texniki çətinliklər yaranmaqdadır:




1) Plastik kartlarla əməliyyatlar zamanı Azərbaycanda mövcud prosessinq mərkəzlərinə plastik kartla baş vermiş əməliyyat barədə məlumat daxil olur, orada əməliyyatın növünü əks etdirən MCC kod qeyd edilir. Əməliyyatın təyinatını, məqsədini ifadə edən bu kodların əvvəlcədən beynəlxalq səviyyədə müəyyən edilmiş standart təsnifatı mövcuddur. Həmin təsnifata əsasən xidmət və ticarəti bir-birindən ayırmaq çətinlik yaradır, bu səbəbdən də avtomatik ƏDV tətbiqi zamanı səhvlərin baş verməsi ehtimalı yüksəkdir. MCC kodlarla Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin dəqiq uzlaşdırılması, vergi tutulacaq MCC kodların Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş dəqiq siyahısının olması qanunvericiliyin tətbiqini xeyli sadələşdirə bilərdi və bütün mübahisəli hallar barədə yekun dəqiq forma müəyyən edilmiş olardı.

2) Qanunvericiliyə əsasən, qeyri-rezident şəxslərdən bu dəyişikliklərdə nəzərdə tutulmuş vergilər tutulmur. Lakin qeyri-rezident şəxs rezidentlik statusu əldə etdikdən sonra əvvəlki bank kartı ilə qeyri-rezidentlərdən mal və xidmət almış olarsa, bank bu şəxsin rezident statusu alması ilə bağlı məlumatlı olmayacaq və vergi tutmayacaqdır. Bu halda vergilərin ödənilməməsinə görə məsuliyyətin müvafiq xidməti almış şəxsin üzərində olmasının qeyd edilməsi daha uyğun olardı.

Yuxarıda qeyd edilənlərdən əlavə təhsil və tibb məntəqələri üçün ödənişlərdən vergi tutulması, SWIFT sisteminin də informasiya sistemi olması ilə əlaqədar ƏDV-nin tətbiq edilib-edilməməsi ilə bağlı da müxtəlif suallar mövcuddur. Bu səbəbdən, fikrimcə, qanunvericiliyin şərhinə, vergi tutulmalı əməliyyatların və vergilərin ödənilməsi üçün hansı halda hansı tərəfin məsul olmasını dəqiqləşdirməyə ehtiyac vardır.

Ümumilikdə götürdüksə isə qanuna dəyişikliklər elektron ticarətin tətbiq edildiyi və edilmədiyi hallar üçün bərabər imkanların yaradılmasını təmin etməyə yönəldilmişdir, bu addımın atılması müxtəlif növ iş və xidmətlərin ölkə daxilində inkişaf etməsini təşviq edir».

**Fəxriyyə İKRAMQIZI**

# Vergi Məcəlləsinə dəyişikliklər ictimaiyyətin diqqət mərkəzindədir

«Deloitte Azərbaycan» şirkəti tərəfindən Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə həsr olunmuş konfrans keçirilib. Tədbirdə şirkətin idarəedici partnyoru Nuran Kərimov, şirkətin vergi üzrə direktoru Emil Qarayev, Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva, nazirliyin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə, neft-qaz, ticarət, ictimai iaşə, bank-sığorta, tikinti, nəqliyyat, rabitə və digər müxtəlif sahələri təmsil edən 100-dən artıq biznes nümayəndəsi iştirak edib.

Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə bağlı təqdimatla çıxış edən Nuran Kərimov bildirib ki, 2016-cı ildə Azərbaycan iqtisadiyyatında geniş islahatlar keçirilib və islahatların ən mühüm istiqamətlərindən biri vergi sisteminə aiddir. Vergi Məcəlləsinə olunmuş əlavə və dəyişikliklər vergi inzibatçılığının və vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bildirilib ki, ən mühüm dəyişikliklərdən biri Məcəllədə vergidən yayınma hallarının qarşısının alınması ilə bağlı yeni maddələrin öz əksini tapmasıdır: «Vergi öhdəliklərindən yayınma hallarına qarşı yeni qaydalar vergi sahəsində ən yaxşı islahatlardan hesab oluna bilər. Vergi ödəyicilərinin əlavə maliyyə sanksiyalarına məruz qalması hallarının qarşısının alınması üçün planlaşdırılan əməliyyatlar üzrə yaranacaq vergi öhdəliklərinin onun müraciəti əsasında əvvəlcədən müəyyən edilməsi mexanizminin tətbiqi məqsədilə Vergi Məcəlləsinə 13.2.49-1, 15.1.2-1, 24.0.1-1, 55.1.3-1 və 77-1-ci maddələr əlavə olunub. Dəyişikliklərə əsasən, vergi ödəyicisi gələcəkdə iri məbləğli müqavilələr üzrə həyata keçiriləcək vergi tutulan əməliyyatlar barədə vergi orqanlarına məlumat verə və bu əməliyyatlar üzrə yaranacaq vergi öhdəlikləri barədə vergi orqanının rəsmi qərarını əldə edə bilər. Bununla da vergi ödəyicisi müvafiq əməliyyatlar üzrə yarana biləcək vergi risklərindən sığortalanmış olur. Bu məqsədlə vergi öhdəlikləri hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılmalı, hər bir belə əməliyyatın dəyəri 10 milyon manatdan az olmamalı və vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsinə görə 500 manat məbləğində dövlət rüsumu ödənilməlidir». Transfer qiymətlərinin tətbiqi barədə qeyd edilib ki, Azərbaycan qanunvericiliyində ilk dəfə olaraq «transfer qiyməti» konsepsiyası müəyyənləşdirilib.

N.Kərimov vergi ödəyiciləri üçün ən mütərəqqi yeniliklərdən biri kimi könüllü vergi açıqlamasına diqqət çəkərək bildirib ki, bu sistemin tətbiqi məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla Vergi Məcəlləsinə 13.2.49-2-ci, 72.5-1-ci və 72.5-2-ci maddələr əlavə edilib. Könüllü vergi açıqlaması səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməyən və vergi öhdəliyinin yaranmasına səbəb olan halların vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü bəyan edilməsidir. Vergi ödəyiciləri tərəfindən könüllü vergi açıqlaması edildiyi halda, vergi ödəyicisi faiz və maliyyə sanksiyasını ödəməkdən azad edilərək yalnız hesablanmış vergi məbləğini ödəyəcək.

Məcəllədə vergi inzibatçılığı ilə bağlı ən mühüm məqamlara toxunan «Deloitte Azərbaycan»ın rəhbəri idarəedici dəyişikliklər sırasında vergi yoxlamaları ilə bağlı islahatları ən yaxşı yeniliklər kimi qiymətləndirib. Qeyd edib ki, dəyişiklər həmin yoxlamalarla bağlı bəzi çətinliklərin aradan qaldırılmasını və bir sıra məsələlərin təkmilləşdirilməsi məqsədi daşıyır. Dəyişikliklərə əsasən, vergi orqanlarına vergi bəyannaməsinin təqdim edilməsindən yalnız 30 iş günü müddətində kameral vergi yoxlaması aparmağa icazə verilir. Bununla yanaşı, səyyar vergi yoxlamaları artıq vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradılmaqla aparılacaq. Nağdsız əməliyyatlar və qaimə-faktura, elektron qaimə-faktura və elektron hesab-fakturaları üzrə tələblərə əməl olunması da operativ vergi yoxlamalarının obyektinə daxil edilib. Həmçinin, hesabat dövründə vergi tutulan dövriyyənin azı 50 faizi sıfır dərəcəsi ilə vergiyə cəlb olunan vergi ödəyicisinə, hesablanmış vergidən artıq olan hissəsi isə sahibkarın vergi və ya gömrük orqanlarına ərizə verdiyi vaxtdan 45 gün ərzində deyil, 20 gün ərzində qaytarılacaq. Bütün bu hallar ödəyicilərin indiyə qədər qarşılaşdıqları bütün çətinliklərin aradan qaldırılmasına şərait yaradacaq.

N.Kərimov vurğulayıb ki, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi və imtiyazların verilməsi qaydalarının təsbit edilməsi sahibkarların hüquq və mənafelərinin qorunması baxımından müsbət addımdır. Həmin meyarlara cavab verən sahibkarlar üçün səyyar vergi yoxlaması keçirilməyəcək, vergi orqanlarına edilmiş yazılı müraciətlər 5 gün ərzində cavablandırılacaq, onlara xidmət mərkəzlərində növbə gözləmədən müraciət və «Çağrı mərkəzi»ndə xüsusi ayrılmış xətdən istifadə imkanı yaradılacaq, ünvanlı səyyar xidmətlər göstəriləcək. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı təkliflər onların öz iştirakı ilə müzakirə ediləcək.

«Tax free» sisteminin tətbiqi və üstünlükləri, «Yaşıl dəhliz» və vergi partnyoru olan ödəyicilərə göstərilən innovativ xidmətlər, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, «vergi amnistiyası»nın tətbiqi nəticəsində sahibkarların əlavə maliyyə mənbələri imkanları əldə etməsi və digər məsələlərə də toxunulub, bu yeniliklərin kiçik və orta biznesin inkişafına, vergi yükünün azaldılmasına və sahibkarların hüquqlarının etibarlı müdafiəsinə xidmət edəcəyinə əminlik bildirilib.

**Vergi orqanlarına vergi bəyannaməsinin təqdim edilməsindən yalnız 30 iş günü müddətində kameral vergi yoxlaması aparmağa icazə verilir**

«Deloitte Azərbaycan» şirkətinin vergi üzrə direktoru Emil Qarayev bildirib ki, Məcəlləyə yüksək beynəlxalq reytinq əldə etmək və reytinqin daim saxlanılması və beynəlxalq sazişlərdən irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə maliyyə institutlarının, o cümlədən bankların hüquq və vəzifələrini, məsuliyyətini nəzərdə tutan yeni maddələr əlavə olunub, banklar qarşısında vergi ödəyicilərinin uçotu ilə bağlı yeni vəzifələr müəyyən edilib: «Banklar hüquqi və fiziki şəxslərə hesab açdıqda və ya maliyyə xidmətləri göstərdikdə Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməlidir. Ölkəmizin rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron «pul kisəsi»ndə yaradılan hesaba pul köçürülərkən əməliyyatı həyata keçirən yerli bank və ya xarici bankın Azərbaycandakı filialı köçürülən məbləğin 10 faizi həcmində ödəmə mənbəyində vergi tutur. Bundan başqa, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən ƏDV hesablanacaq və ödəniləcək. Banklar və kredit təşkilatları bu əməliyyatların aparılmasını tənzimləmək üçün proqram təminatı qurmalıdır».

E.Qarayev bildirib ki, Məcəlləyə edilmiş mühüm dəyişikliklərdən biri də sahibkarlıq subyektləri arasında malların, işlərin və xidmətlərin həyata keçirilməsi zamanı elektron qaimə-fakturanın təqdim olunmasıdır. Bu tələb ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər üçün 2017-ci ilin aprelindən, bütün digər vergi ödəyiciləri üçünsə 2018-ci ilin yanvarından qüvvəyə minəcək. Vergi Məcəlləsinə edilmiş bu dəyişikliklər sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, şəffaflığın təmin edilməsinə səbəb olacaq.

Təqdimat zamanı konfrans iştirakçılarına Vergi Məcəlləsində amortizasiya normaları və aksiz vergisi üzrə dəyişikliklər, fiziki şəxslərin vergi tutulan gəlirlərinin əhatə dairəsinin genişləndirilməsi, sabit sadələşdirilmiş verginin tətbiqi, faiz gəlirlərinin vergidən azadolma müddətinin uzadılması, ƏDV üzrə azadolmalar, nağdsız hesablaşmaların təşviqi və digər yeniliklər barədə geniş məlumatlar verilib.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva və nazirliyin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə konfrans iştirakçılarının Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı suallarını cavablandırıblar.

**E.CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Yanvarın 16-da Azərbaycan Respublikası Hökuməti, «Cənub Qaz Dəhlizi» Qapalı Səhmdar Cəmiyyəti və Dünya Bankı arasında Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) layihəsinin dəstəklənməsi məqsədilə kredit ayrılmasına dair müqavilə imzalanıb.

«Elektron hökumət» portalına kənd təsərrüfatı ilə bağlı yeni elektron xidmətlər inteqrasiya olunub.

Bu ilin mart ayında üçüncü əczaçılıq zavodunun təməli qoyulacaq və 2-3 il ərzində Azərbaycanda bir neçə zavod dərman istehsalına başlayacaq.

Vyetnamın paytaxtı Hanoy şəhərində iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının ilk iclası keçirilib.

«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-də «Tax Free» sistemi tətbiq olunacaq.

Ölkəmizdə tətbiq olunan «elektron imza» Avropa İttifaqı ölkələrində tanınacaq.

Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin ən yüksək sıxlığa malik olduğu sənaye zonasında model müəssisələrin yaradılması nəzərdə tutulur və ilk model müəssisə pilot layihə kimi potensial olaraq Bakı regionunda yerləşəcək.

Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi bu il ölkəmizdə rəsmən fəaliyyətə başlayacaq.

Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın ilk iclası Bakıda keçiriləcək.

«Əl-Cəzirə» telekanalı Azərbaycanın turizm imkanlarına həsr olunmuş silsilə repotajlar yayımlayır.




# Vergi öhdəliyinin əvvəlcədən müəyyən edilməsi

Vergi Məcəlləsinə əlavə edilmiş 13.2.49-1, 15.1.2-1, 24.0.1-1, 55.1.3-1 və 77-1-ci maddələr vergi öhdəliklərinin düzgün müəyyən edilməməsi nəticəsində vergi ödəyicilərinin əlavə maliyyə sanksiyalarına məruz qalması hallarının qarşısının alınması üçün planlaşdırılan əməliyyatlar üzrə yaranacaq vergi öhdəliklərinin ödəyicinin müraciəti əsasında əvvəlcədən müəyyən edilməsi mexanizminin tətbiqi məqsədini daşıyır. Dəyişikliklərə əsasən, vergi ödəyicisi gələcəkdə iri məbləğli müqavilələr üzrə həyata keçirəcəyi vergi tutulan əməliyyatlar barədə vergi orqanlarına məlumat verə və bu əməliyyatlar üzrə yaranacaq vergi öhdəlikləri barədə vergi orqanının rəsmi qərarını əldə edə bilər. Bununla da vergi ödəyicisi müvafiq əməliyyatlar üzrə yarana biləcək vergi risklərindən sığortalanmış olur. Bu məqsədlə vergi öhdəlikləri hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılmalı, hər bir belə əməliyyatın dəyəri 10 milyon manatdan az olmamalı və vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsinə görə 500 manat məbləğində dövlət rüsumu ödənilməlidir.

Dəyişikliyi şərh edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin şöbə rəhbəri Əvəz Quliyevin sözlərinə görə, vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsi məqsədilə vergi orqanına ərizə ilə müraciət etmək vergi ödəyicisinin hüququna, bu qərarı qəbul etmək isə vergi orqanının vəzifələrinə aid edilib: «Vergi ödəyicisi qeyd olunan hüququndan istifadə etmək üçün vergi orqanına «İnzibati icraat haqqında» Qanunda nəzərdə tutulmuş qaydada ərizə ilə müraciət etməlidir.

Barəsində qərarın qəbul edilməsi tələb edilən vergi tutulan əməliyyata aid sənədlər, vergi tutulan əməliyyatlar üzrə vergi öhdəliklərinin və vergi qanunvericiliyinin tətbiq edilməsinin doğuracağı hüquqi nəticələrə dair vergi ödəyicisinin qeydləri, qərarın qəbulu üçün zəruri hesab edilən digər məlumatlar ərizəyə əlavə edilməlidir. Ərizəyə əlavə olunmuş sənədlər dövlət dilində olmalı, xarici dildə tərtib edilmiş sənədlərin əsli dövlət dilinə rəsmi təsdiq edilmiş tərcümə ilə müşayiət olunmalıdır. Ərizə qəbul olunduqdan sonra qərar yuxarıda qeyd olunan sənədlər və məlumatlar təqdim edildikdən sonra 30 iş günü müddətində qəbul edilir. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və qərarın qəbul edilməsi üçün imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə ərizənin qeydiyyata alındığı tarixdən 10 iş günündən gec olmayaraq vergi orqanı onların aradan qaldırılması barədə məlumatı vergi ödəyicisinə bildirir.

Vergi ödəyicisi tərəfindən təqdim olunmuş ərizə və ona əlavə edilmiş sənədlərdə çatışmazlıqlar olmadıqda və ya aşkar edilmiş çatışmazlıqlar yuxarıda qeyd olunan vaxtda aradan qaldırıldıqda vergi orqanı «Dövlət rüsumu haqqında» Qanunla müəyyən edilmiş dövlət rüsumunu ödəməsi vəzifəsi barədə vergi ödəyicisinə şifahi və ya məktub vasitəsilə məlumat verir. Qərarın qəbul edilməsi üçün dövlət rüsumu vergi orqanının verdiyi məlumat alındığı tarixdən 3 iş günü ərzində vergi ödəyicisi tərəfindən ödənilməli və ödənişi təsdiq edən sənəd vergi orqanına təqdim olunmalıdır. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd vergi orqanına təqdim edildikdən sonra qeyd edilən proseslər nəzərə alınmaqla sənəd və məlumatlar vergi orqanına təqdim edildikdən sonra 30 iş günü müddətində «Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərar» qəbul edilərək vergi ödəyicisinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir».

Ə.Quliyevin sözlərinə görə, ərizədə və ona əlavə olunmuş sənədlərdə qanuna uyğun olmayan məlumatlar olduqda, ərizədə qeyd olunan əməliyyat üzrə bu Məcəlləyə uyğun olaraq vergi öhdəliyinin müəyyən edilməsinə dair vergi orqanının qərarı olduqda və bu əməliyyat üzrə göstəricilərdə hər hansı dəyişiklik baş vermədikdə və barəsində qərar qəbul edilməsi nəzərdə tutulan əməliyyatın dəyəri 10 milyon manatdan aşağı olduqda, dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd Məcəllədə göstərilən müddətdə vergi orqanına təqdim edilmədikdə və digər hallarda vergi orqanı tərəfindən qərarın qəbul edilməsindən imtina edilir. Vergi ödəyicisi vergi orqanı tərəfindən bu maddəyə uyğun olaraq qəbul edilmiş qərardan, habelə həmin qərarın qəbul edilməsi ilə bağlı imtinadan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

İqtisadçı ekspert Fikrət Yusifovun sözlərinə görə, vergi öhdəliklərinin düzgün müəyyən edilməməsi nəticəsində vergi ödəyicilərinin əlavə maliyyə sanksiyalarına məruz qalması hallarının qarşısının alınması üçün planlaşdırılan əməliyyatlar üzrə yaranacaq vergi öhdəliklərinin onun müraciəti əsasında əvvəlcədən müəyyən edilməsi mexanizminin tətbiqi məqsədilə Vergi Məcəlləsinə edilmiş və bu ilin əvvəlindən qüvvəyə minmiş dəyişikliklərin əsas məqsədi əməliyyatlar üzrə vergi öhdəliklərini əvvəlcədən müəyyən etməkdir: «Vergi öhdəliyinin vergi orqanlarının rəsmi qərarı əsasında əvvəlcədən müəyyən edilməsi, ilk növbədə, vergi ödəyicilərini hər hansı bir riskdən qorumağa yönəldilmiş addımdır. Təcrübə göstərir ki, bir çox hallarda vergi ödəyicilərinin diqqətsizliyi üzündən sonradan aparılan vergi hesablamaları zamanı müəyyən səhvlərə yol verildiyi aşkar olunur, bu isə sonda cərimə sanksiyalarının tətbiqi ilə nəticələnir. Vergi yükünün üzərinə hər hansı bir cərimə sanksiyasının əlavə olunması bütün hallarda vergi ödəyiciləri üçün arzu olunan deyil. Bunu nəzərə alaraq, vergilərin ödənilməsi qaydalarında edilən dəyişiklikləri sahibkarların işinin asanlaşdırılması və lüzumsuz xərclərin qarşısının alınması kimi qiymətləndirmək mümkündür».

**Vergi öhdəliyinin vergi orqanlarının rəsmi qərarı əsasında əvvəlcədən müəyyən edilməsi, ilk növbədə, vergi ödəyicilərini hər hansı bir riskdən qorumağa yönəldilmiş addımdır**

Qeyd edək ki, vergi öhdəliyinin əvvəlcədən müəyyən edilməsi mexanizmi Avstriya, Belçika, Kanada, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Macarıstan, İsrail, İtaliya, Yaponiya, Niderland, İspaniya, Türkiyə, Böyük Britaniya, ABŞ və s. ölkələrin qanunvericiliyində də təsbit edilib.

**Aytən NƏBİYEVA**

Vergilər

# Transfer qiymətlərin müəyyən edilməsi

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərdə mühüm əhəmiyyət kəsb edən müddəalardan biri beynəlxalq təcrübə nəzərə alınmaqla vergi ödəyiciləri tərəfindən xərclərin süni şəkildə artırılması hallarının aradan qaldırılmasıdır.

Məcəlləyə əlavə edilmiş 13.2.65-ci, 14-1-ci və 16.1.4-1-ci və 57.4-cü yeni maddələr, həmçinin 16.1.4-cü maddəyə edilmiş dəyişikliklər vergitutma bazasının azaldılmasının qarşısını almaq məqsədi daşıyır. Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Baş Direktoru Zaur Fətizadə bildirmişdir ki, vergi orqanları tərəfindən transfer qiymətlərin müəyyənləşdirilməsinin məqsədi qarşılıqlı əlaqəli müəssisələr arasında aparılan əməliyyatlarda formalaşan qiymətlərin müstəqil müəssisələr arasında analoji şərtlərdə formalaşa biləcək bazar qiymətlərinə uyğunluğunun təmin olunması və hesablanmış transfer qiymətləri əsas götürülməklə vergilərin hesablanması və ya bəyan edilmiş vergi məbləğlərinə düzəliş olunmasıdır.

Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydası Vergilər Nazirliyi tərəfindən müəyyən olunacaq. Qeyd olunmuşdur ki, vergi orqanlarının transfer qiymətləndirməni aydınlaşdırması o qədər də çətin deyil. Məsələn, eyni təsisçiyə məxsus «A» şirkəti (Azərbaycan rezidenti) və «B» şirkəti (güzəştli vergi tutulan ölkənin rezidenti) ilə qarşılıqlı əməliyyatlar aparır. «A» şirkətinin məhsulun hazırlanmasına çəkdiyi xərclər 1 milyon manat, malların bazar qiyməti isə 2 milyon manatdır. «A» şirkəti malları «B» şirkətinə 1 milyon 100 min manat qiymət müqabilində təqdim edir və 100 min manat mənfəət əldə edir. Həmin mənfəətdən 20 min manat mənfəət vergisi ödəyir (100.000 * 20%). «B» şirkəti malları Azərbaycanda 2 milyon manata təqdim edir və 900.000 manat mənfəət əldə edir. Başqa ölkənin rezidenti olduğundan əldə etdiyi mənfəətdən Azərbaycanda mənfəət vergisi ödəmir. Beləliklə, Azərbaycan büdcəsinə ödənilməli olan 180.000 manat vergi bu yolla azaldılır (900.000 * 20%).

Transfer qiymətləri təqvim ili ərzində yalnız ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara tətbiq olunacaq və mənfəət vergisinin məqsədləri üçün istifadə ediləcək. Bunlar isə aşağıdakı şəxslərə aiddir:

- Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər arasında;
- qeyri-rezidentin Azərbaycandakı daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi arasında;
- Azərbaycan Respublikasının rezidenti və (və ya) qeyri-rezidentin ölkəmizdəki daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlər arasında.

Qeyd olunan şəxslər 2017-ci ildən 2018-ci il mart ayının 31-dən gec olmayaraq təqvim ili ərzində yuxarıda göstərilən hər bir şəxs üzrə ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara dair Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayışı və müvafiq məlumatları təqdim etməlidirlər. Arayışı müəyyən olunmuş müddətdə təqdim etməyən vergi ödəyicisinə qarşı 500 manat məbləğində maliyyə sanksiyası tətbiq olunacaq.

> Transfer qiymətinin tətbiqi zamanı qiymətlərə təsir edə bilən amillər də nəzərə alınacaq və Vergi Məcəlləsinin bazar qiymətinə aid olan müddəaları tətbiq ediləcək

Vergi ödəyiciləri arasında həyata keçirilən və müqayisə edilə bilən əməliyyatlarda təsbit edilən qiymətlər, habelə ayrı-ayrı əməliyyatlar haqqında müqayisə edilə bilən məlumatlar mövcud olmadıqda qiyməti müəyyən etmək üçün aşağıdakı üsullardan istifadə ediləcək:

- sonrakı (təkrar) satış qiymətinə əsasən;
- dəyərin toplanması üsuluna əsasən;
- rentabellilik üsuluna əsasən;
- mənfəətin bölgüsü üsuluna əsasən.

Transfer qiymətinin tətbiqi zamanı qiymətlərə təsir edə bilən amillər də nəzərə alınacaq və Vergi Məcəlləsinin bazar qiymətinə aid olan müddəaları tətbiq ediləcək. Malların (iş və xidmətlərin) bazar qiymətləri müəyyənləşdirilərkən qiymətlərə təsir edə bilən aşağıdakı amillər nəzərə alınacaq:

- göndərilmiş malların həcmi;
- öhdəliklərin icra olunması müddəti, ödəniş şərtləri;
- mallara tələb və təklifin dəyişməsi;
- malların mənşə ölkəsi, alındığı və ya təqdim edildiyi yer;
- malların göndərilmə şərtləri;
- malların keyfiyyətinin və digər istehlak göstəricilərinin səviyyəsi;
- marketinq siyasətinin aparılması ilə əlaqədar analoqu olmayan yeni malların bazara çıxarılması, yaxud malların (işlərin, xidmətlərin) yeni bazara çıxarılması,
- istehlakçıların tanış olması məqsədilə əmtəə nümunələrinin təqdim edilməsi;
- işlərin görülməsi, xidmətlərin göstərilməsi, o cümlədən təmir, tikinti, quraşdırma işləri, nəqliyyat, icarə, təhsil, tibb xidmətləri və digər sahələr üzrə bazar qiymətlərinin müəyyənləşdirilməsi.

Beləliklə, qeyd edilən müddəalara əsasən, rezident vergi ödəyicisinin ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı (offşor) hesab edilən dövlətlərdə və ya ərazilərdə təsis edilmiş vergi ödəyiciləri ilə aparılan əməliyyatlardan qazandığı gəlirlərinə transfer qiymətləri tətbiq ediləcək, buna uyğun olaraq vergiyə cəlb olunacaq.

Dəyişikliklərə münasibət bildirən «PWC Azərbaycan» şirkətinin vergi və hüquq məsələləri üzrə direktoru Arif Quliyevin sözlərinə görə, transfer qiymətləndirmədən istifadə etməklə vergidən yayınma hallarına, demək olar ki, Avropanın bütün ölkələrində rast gəlinir: «Son illərdə dünya iqtisadiyyatının qloballaşması və milli iqtisadiyyatların inteqrasiyası dünya ticarətində şirkətlərin rolunu kifayət qədər artırıb. Şirkətlərin böyüməsi vergi orqanlarına həmin şirkətlərin gəlir və xərclərini düzgün müəyyən etməkdə, eləcə də vergitutma ilə bağlı digər sahələrdə bəzi problemlər yaradır. Bir çox şirkətlər aparılan əməliyyatları əvvəlcədən planlaşdırır və müxtəlif sxemlərdən istifadə edərək vergidən yayınırlar. Müstəqil müəssisələr arasında əməliyyatlar aparılan zaman onların razılaşdırdıqları şərtlər və qiymətlər müstəqil surətdə bazar amillərinin təsiri altında formalaşır. Qarşılıqlı surətdə asılı olan şəxslər arasında əməliyyatlar aparılan zaman isə qiymətin əmələ gəlməsinə təsir edən amillər təkcə sərbəst bazar amilləri deyil, əksər hallarda əməliyyatların qiymətlərinə ümumi mənfəətin artırılması və bütün qrupun yekun vergisinin minimallaşdırılması məqsədi də təsir göstərir. Yerli və xarici şirkətlərin müxtəlif vergitutma normaları olan ölkələrdə fəaliyyət göstərməsi onların apardıqları kommersiya əməliyyatlarında vergidən yayınma hallarına yol verilməsi risklərinin qarşısının alınmasında ən yaxşı mexanizmlərdən biri transfer qiymətlərinə nəzarətdir. Transfer qiymətqoyma Avropa İttifaqına daxil olan ölkələrdə, Amerika Birləşmiş Ştatlarında və sair dövlətlərdə tətbiq olunur».

Qeyd olunub ki, bu dəyişiklik vergi qanunvericiliyinin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasını və ölkəyə xarici investisiyaların cəlb edilməsini, şəffaflığın və vergi daxilolmalarının həcminin artmasını təmin edəcək.

**Elbrus CƏFƏRLİ**

# Lizinq üçün əlavə güzəştlərin tətbiqi nəzərdən keçiriləcək

Azərbaycanda lizinqin inkişafı üçün, ilk növbədə, vahid qanunun hazırlanması nəzərdən keçiriləcək. Bu barədə «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə deyilir.

Sənəddə qeyd edilir ki, yeni qanun lizinq şirkətlərinin operativ lizinq xidmətləri göstərməsinə şərait yaradacaq. Yeni qanun əsasında müvafiq normativ hüquqi baza formalaşdırılacaq və lizinq şirkətlərinin fəaliyyəti üçün daha əlverişli şərait yaradılacaq.

Lizinq bazarının daha sürətlə inkişaf etməsi üçün güzəştlərin tətbiq olunması təmin ediləcək və yeni tənzimlənmə mexanizmləri müəyyənləşdiriləcək.

Bundan əlavə, ölkə üçün xüsusi əhəmiyyət kəsb edən sektorlarda lizinq üçün əlavə güzəştlərin tətbiqi nəzərdən keçiriləcək. Bu güzəştlər kiçik və orta sahibkarlıq subyektləri tərəfindən alternativ maliyyələşmə mənbəyi kimi lizinq xidmətlərindən istifadənin stimullaşdırılmasına şərait yaradacaq.

## AZƏRBAYCAN RESPUBLİKASININ VERGİLƏR NAZİRLİYİ

### ərazi vergi orqanlarında və rayon vergilər şöbələrində vakant vəzifələrə işə qəbul üzrə müsabiqə

# ELAN EDİR

Müsabiqədə hüquqşünaslıq, iqtisadiyyat və idarəetmə ixtisas istiqamətlərinə uyğun ixtisaslar üzrə ali təhsili olan (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar iştirak edə bilərlər.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən, vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

* məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
* üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə sənədlər elektron ərizə vasitəsilə 5 yanvar 2017-ci ildən 18 yanvar 2017-ci il saat 24:00-dək qəbul edilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (**www.taxes.gov.az və www.e-taxes.gov.az**) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə iş nömrəsi verilir. Namizəd sənədləri qəbul etdikdən beş gün ərzində verilmiş iş nömrəsi əsasında ərizəsinin qəbul edilib-edilmədiyi barədə məlumat ala bilər.

Namizədlər internet vasitəsilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda Vergilər Nazirliyinə (tel: 012-403-81-35), Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Sənədləri qəbul edilən namizədlər imtahana buraxılış vərəqələrini 25 yanvar 2017-ci ildən 27 yanvar 2017-ci il saat 18:00-dək Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı 28 yanvar 2017-ci ildə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (**www.taxes.gov.az**) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

**Diqqət!** Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan vətəndaşlara üstünlük verilir. Vətəndaş ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dilini bilmə səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

Müsabiqədə uğur qazanan vətəndaşlara ərazi vergi orqanlarında və ya rayon vergilər şöbələrində vakant vəzifələr üzrə iş təklif ediləcəkdir. Göstərilən təklifdən imtina edən şəxslər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır.

## vergi təqvimi

**YANVAR**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | 31 | | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

16 yanvar - «(1)», «(2)»
23 yanvar - «1-1», «1-2», «3», «4», «7», «8», «9», «9-1», «10.1», «10.2», «10.3» və «11»
31 yanvar - «10.1»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilndə fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə)** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər**: ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlət rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edildilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# İspaniyada yeni ekoloji vergilər tutulacaq

Yeni ekoloji vergilərin tətbiq olunması Avropa İttifaqının büdcə üçün müəyyənləşdirdiyi qaydalar çərçivəsində İspaniyanın öz büdcə öhdəliklərinə əməl etmək öhdəliklərini yerinə yetirmək cəhdlərinin əsas hissəsini təşkil edir.

Avropa İttifaqının 2017-ci il üçün yenidən baxdığı büdcə planına uyğun olaraq, hökumət bu il ekoloji yığımlar hesabına əlavə 500 milyon avro vəsait cəlb etməyi planlaşdırır. Planın ayrı-ayrı təfərrüatları əldə olmasa da, ehtimal edilir ki, vergi atmosferə karbon-dioksid qazının buraxılmasını əhatə edəcək.

Bununla yanaşı, bu yaxınlarda formalaşdırılmış hökumətin ölkədə qüvvədə olan 25 faizlik korporativ verginin dərəcəsini dəyişməz saxlamaq barədə qərar çıxarmasının İspaniyanın büdcəsinə əlavə 7 milyard avro vəsait daxil olmasına şərait yaradacağı da gözlənilir.

Büdcə vergilərin qaytarılmasına, eləcə də «vergi limanlarında və ya müvafiq vergitutma səviyyəsinə malik olmayan ərazilərdə yerləşən» şirkətlərin səhm paketləri ilə bağlı itkilərdən istifadəyə məhdudiyyət qoyulmasını nəzərdə tutur. Bundan əlavə, büdcə gəlirlərinin artırılması məqsədilə daşınmaz əmlakın dəyəri daşınmaz əmlak vergisi üzrə yenilənəcək. Hökumət həmçinin alkoqollu içkilər, tütün məmulatları, tərkibində şəkər olan içkilər kimi məhsullara tətbiq edilən vergiləri də artırmağı nəzərdə tutur.

2017-ci ildə İspaniyada büdcə kəsirinin 4,6 faiz olacağı gözlənilir. Qarşıdakı ildə bu göstəricini 3 faizə və ya bundan aşağı səviyyəyə endirə bilməsə, İspaniya Aİ tərəfindən cərimələnəcək.




# Avropada vergi qanunvericiliyi daha da şəffaflaşacaq

Avropa Komissiyası yeni qaydaların qüvvəyə minməsinə müsbət rəy bildirmişdir. Bu qaydalara əsasən, Avropa İttifaqına (Aİ) üzv ölkələrin transsərhəd əməliyyatlarla bağlı vergi qanunvericiliyindəki dəyişikliklər avtomatik şəkildə mübadilə ediləcək. İqtisadiyyat və maliyyə məsələləri üzrə komissar Pyer Moskovisi demişdir: «Bizim qarşıya qoyduğumuz vəzifə Aİ-də korporasiyaların vergiyə cəlb olunmasını daha ədalətli və şəffaf etmək, eləcə də müxtəlif ölkələrin vergi qanunvericiliklərində mövcud olan fərqliliklərdən sui-istifadə olunmasına qarşı tədbirlər görməkdir».

Yeni sistemə uyğun olaraq milli vergi orqanları hesabatları mərkəzi depozitariyə göndərəcəklər. Bu hesabatlara transsərhəd maliyyə əməliyyatları ilə bağlı vergi qanunvericiliyində qəbul olunmuş bütün dəyişikliklər daxil ediləcək. Üzv dövlətlərin hamısı bu və ya digər dəyişikliyi etmiş ölkəyə daha ətraflı məlumat almaq üçün müraciət edə biləcək.

Qaydalar artıq bu il yanvarın 1-dən qüvvəyə minmişdir. İlk hesabatların verilməsi və məlumat mübadiləsinin aparılması isə 2017-ci ilin sentyabrından gec olmayaraq həyata keçirilməlidir.

# Cənubi Koreyada əcnəbilər üçün vergi təlimatı nəşr edilib

Ölkənin vergi xidməti əcnəbi vətəndaşlar üçün vergilərin ödənilməsinə dair vəsait hazırlayıb nəşr etmişdir. Bu təlimat əcnəbilərə 2016-cı ildə əldə etdikləri gəlirlərdən vergiləri hesablamaqda və ödəməkdə yardım məqsədi daşıyır. Təlimatda Vergi Məcəlləsində keçən il edilmiş bütün dəyişikliklər öz əksini tapmış, vergi ilə bağlı tez-tez verilən suallara aydınlıq gətirilmişdir. Məsələn, suallardan biri belədir ki, xarici rezidentlərin xarici mənbələrdən əldə etdikləri, lakin Cənubi Koreyada alınmış və ya bu ölkəyə köçürülmüş gəlirlərdən vergi necə ödənilməlidir.

Bundan əlavə, təlimatda deyilir ki, əcnəbilər fərdi gəlirdən tutulan verginin dərəcəsinin aşağı salınması üçün müraciət edə bilərlər. Cənubi Koreyanın vergi xidmətinin məlumatlarına görə, 2016-cı ilin yekunlarına əsasən, 600 minə yaxın əcnəbi vətəndaşın ödənilmiş vergilərin qaytarılması üçün müraciət etməsi gözlənilir.

# Hindistanda vergi yığımı göstəriciləri artır

Hökumət bildirmişdir ki, demonetizasiya barədə noyabr ayında verilmiş qərar vergi yığımı göstəricilərinə mənfi təsir göstərməmişdir. İri əsginasların dövriyyədən çıxarılması faktiki olaraq vergi xidmətinin fəaliyyətində hər hansı problem yaratmamışdır.

Yanvarın 9-da Hindistanın maliyyə naziri Arun Ceyntli bəyan etmişdir ki, 2016-cı ilin dekabrında ondan əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə dolayı vergilərin (aksizlər, gömrük rüsumları və xidmətlərə görə vergilər) yığılması göstəricisində 14,2% artım olmuşdur. Bu nəticənin əldə olunması iri əsginasların dövriyyədən çıxarılması barədə ölkə rəhbərliyinin qərarının Hindistanda iqtisadi fəaliyyəti zəiflətdiyi barədə irəli sürülən iddiaları təkzib edir. Bununla belə, Hindistanda 2016-cı ilin martında başa çatmış maliyyə ilində 7,6% olmuş ümumi daxili məhsul artımının bu il 7,1%-ə düşəcəyi gözlənilir.

# Əcnəbilərə vergi, ziyanlı ərzaqlara aksiz tətbiq ediləcək

Səudiyyə Ərəbistanı hökuməti 2020-ci ilə qədər büdcənin tarazlaşdırılması proqramı çərçivəsində 2017-ci ilin ikinci rübündən ziyanlı ərzaq məhsullarına aksiz vergisinin tətbiq olunacağını elan etmişdir. Alkoqolsuz qazlı içkilərə 50%, energetik və tütün məhsullarına isə 100% dərəcə üzrə vergi qoyulacaq. 2018-ci ilin ilk rübündən həm də 5% dərəcə ilə əlavə dəyər vergisinin tətbiqinə başlanacaq.

Xatırladaq ki, Səudiyyə Ərəbistanında vizaların qiyməti və bir sıra bələdiyyə vergiləri artırılmışdır. Hazırda hökumət bu ilin üçüncü rübündən ölkə vətəndaşları ilə müqayisədə daha çox əcnəbi işçilərin çalışdığı şirkətlərə verilmiş güzəştləri azaltmağı planlaşdırır. Bu cür şirkətlər üçün əcnəbilər üzrə aylıq vergi 800 riyal (378,4 manat) məbləğində olacaq.

Hesablamalara görə, ziyanlı ərzaq məhsullarına qoyulmuş aksizlər, eləcə də əcnəbi işçilərə görə tutulan vergilər bu il büdcəyə 42 milyard riyal (19,9 milyard manat), 2020-ci ildə isə 152 milyard riyal (72 milyard manat) əlavə vəsait gətirəcək.

## Xəbər lenti

**İsrail** hökuməti aktivlərin bitkoinlə satışı ilə bağlı maliyyə əməliyyatlarından əldə edilmiş gəlirlərə vergi qoymağı planlaşdırır, bu zaman rəqəmsal valyuta olan bitkoin əmlak aktivinə bərabər tutulacaq. Hökumət bitkoinə və digər rəqəmsal valyutalara qeyri-maddi aktiv obyekti kimi baxılmasını nəzərdə tutur.

**ABŞ** Vergi İdarəsinin məlumatına əsasən, vətəndaşların şəxsi informasiyalarının oğurlanaraq ələ keçirilməsi və digər fırıldaqların yoxlanılması ilə əlaqədar bu il artıq ödənilmiş vergilərin qaytarılması gecikdirilə bilər.

**Rusiya**nın Dövlət Duması tərkibində şəkər olan qazlı içkilər və kartof çipsləri üçün aksiz tətbiq edilməsinə dair qanun layihəsinə baxılmasını təxirə salmışdır.

**Özbəkistan** Prezidenti Şavkat Mirziyoyevin fərmanına əsasən, ölkədə dörd yeni azad iqtisadi zona yaradılacaq. Zonaların yerləşməsinin nəzərdə tutulduğu Urqut, Buxara, Fərqanə və Xarəzm regionlarının, eləcə də aidiyyəti qurumların rəhbərləri fevralın ortalarına qədər tələb olunan torpaq sahələrini ayırmalıdırlar. Azad iqtisadi zonaların fəaliyyət müddəti 30 il müəyyənləşdirilmişdir. Bu müddət ərzində AİZ-lərdə xüsusi vergi, gömrük və valyuta rejimləri qüvvədə olacaq.

**Ukrayna**da maliyyə polisi haqqında yeni qanun qəbul edilənə qədər vergi milisi öz fəaliyyətini və ölkənin iqtisadi maraqlarının qorunmasını davam etdirəcək. Bu barədə Dövlət Fiskal Xidməti sədrinin birinci müavini Sergey Bilan məlumat vermişdir.

# Ət-süd məhsulları üçün ƏDV-ni artırmaq təklif olunub

Almaniyanın Ətraf Mühit üzrə Federal Nazirliyinin təşəbbüsü ilə salyami, Frankfurt sosiskası və şnisel üçün hazırda mövcud olan əlavə dəyər vergisinin artırılması təklif edilmişdir. Nazirliyin nəşr etdiyi məruzə «Ətraf mühitə ziyan vuran dotasiyalar» adlanır. Bu siyahıya ət-süd məhsullarına tətbiq olunan ƏDV dərəcəsinin olması da daxil edilib. Ət və süd məhsullarının istehsalına böyük həcmdə enerji və təbii ehtiyatlar sərf olunduğuna görə, nazirlik hazırda bu sahədə mövcud olan 7 faizlik ƏDV dərəcəsinin normal səviyyəyə - 19 faizə çatdırılmasını təklif etmişdir.

Təbiəti mühafizə agentliyinin rəhbəri və bu təşəbbüsün fəallarından olan Mariya Krautsberger hesab edir ki, belə bir tədbirə əl atılması məntiqidir: hazırda Almaniya Avropada təbiəti mühafizə hərəkatının önündə olmasına baxmayaraq, kənd təsərrüfatı məhsullarının ekologiyaya zidd istehsalını mükafatlandırır.

Kənd təsərrüfatı naziri Kristian Şmidt isə ət-süd məhsulları üçün ƏDV-nin dərəcəsinin artırılması təşəbbüsünü kəskin tənqid etmişdir: «Təbiəti mühafizə agentliyinin təşəbbüsü yeni deyil və yaxşılığa aparmır. Mən vətəndaşlara cəza vergisinin qoyulmasını arzulamıram».

## krossvord



**Yuxarıdan aşağı:** 1.Çox vaxt rəsmlərdə (natürmortlarda) təsvir olunan yağ və şərab saxlamaq üçün iki şaquli qulplu yumurta formalı qab; 2.Almaniyanın şərqində şəhər; 3.Rusiyanın Tümen vilayətindən keçən çay; 4.Urologiya üzrə həkim; 5.Çar Rusiyasında qapalı orta hərbi məktəb müdavimi. 6.Yaponiyada şəhər; 9.«Bir dünya markası» devizi ilə tanınan ev məişət texnikası brendi; 13.«Bakılı oğlanlar» komandasının mərhum kapitanının adı; 15.Sükanı və əyləci olan metal kirşə ilə dağdan sürətlə sürüşmə idman növü; 16.Fransız rəssamı, postimpressionizm cərəyanının yaradıcısı və görkəmli nümayəndəsi; 17.Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinə aid olan gəmilərdən biri; 18.Pendir növü; 20.Rəsmən müəyyən edilmiş ödəniş, vergi, rüsum; 21.İsrailin pul vahidi. **Soldan sağa:** 1.Rəqs edən cismin tarazlıq vəziyyətindən uzaqlaşdığı nöqtələr arasındakı məsafə; 5.Gizli ədavət hissi; 7.Fotoeffekt prinsipi əsasında işləyən yarımkeçirici; 8.Türk və altay mifologiyasında və xalq mədəniyyətində əhd etmək və ya nəzir demək; 10.Fransız heykəltəraşı, məşhur «Mütəfəkkir» heykəlinin müəllifi; 11.Musiqi termini. Əsas tona xüsusi çalar, tembr verən əlavə ton; 12.Türkiyə müğənnisi, aktyor və bəstəkar; 14.İnsanın könüllü surətdə, məcbur edilmədən məşğul olduğu və böyük zövq aldığı fəaliyyət; 19.Kütlə qarşısında çıxış edən artistlər üçün quraşdırılan açıq səhnə; 21.Türk və altay dastanlarında adı çəkilən əfsanəvi at. Alpamış xanın atı; 22.Hindistanın şimalında, Uttar-Pradeş ştatında şəhər; 23.Kosmetik maddə kimi işlədilən ətirli, spirtli məhlul. Adı «Eau de Cologne» sözündən əmələ gəlib və «Köln şəhərinin suyu» deməkdir; 24.Xeyir, fayda, mənfəət; 25.Üçsimli rus xalq musiqi aləti.



*Məşhur fransız rəssamı, postimpressionizm cərəyanının yaradıcısının natürmortu*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Tamara *(Gözəlova)*; 2.Tilidin; 3.Akanf; 4.İzırak; 5.Lokarno; 6.Nazif; 7.Dekabr; 13.Kant *(İmmanuel)*; 15.Kolorit; 16.Psixoz; 17.Früauf *(Rüland)*; 18.Jdanov; 20.Livan; 21.Mədən. **Soldan sağa:** 1.Tetrasiklin; 8.Multanı; 9.Kazak; 10.Rədif; 11.Aerofob; 12.Oniks; 14.Mokko; 19.Silindr; 21.Milad; 22.Xivə; 23.Mandarin; 24.Zan; 25.İnfinitiv.


Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

## idman

# Güləş üzrə Azərbaycan çempionatına yekun vurulub



Yanvarın 13-də Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatına yekun vurulub. Azərbaycan Güləş Federasiyasının (AGF), Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışda 18 yaşı tamam olan və yuxarı yaşlı idmançılar iştirak ediblər. Şəxsi xarakter daşıyan yarışda idman cəmiyyət, klub və təşkilatlarının, şəhər və rayon yığma komandalarının tərkibinə daxil olan güləşçilər mübarizə aparıblar.

Çempionatın sonuncu günündə yunan-Roma güləşi yarışlarında 75, 80, 85, 98 və 130 kiloqram çəki dərəcələri üzrə 84 idmançı mübarizə aparıb. Yarışda Mehrac Kərimov (75 kq), Rafiq Hüseynov (80 kq), İslam Abbasov (85 kq), Orxan Nuriyev (98 kq) və Oyan Nəzəriani (130 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

Şampionatın sonuncu günündə qalib gələn idmançılar AGF tərəfindən diplom, medal və pul mükafatları ilə təltif olunublar.

Yarışda ilk üç yeri tutan idmançılar yığma komandanın heyətinə cəlb olunub və il ərzində millinin qatılacağı beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

# 20 Yanvar şəhidinin xatirəsinə həsr olunmuş beynəlxalq turnir

Yanvarın 14-də Bakı İdman Sarayında 20 Yanvar şəhidi Müşviq İsayevin xatirəsinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə yeniyetmələr arasında sayca 20-ci beynəlxalq turnirə start verilib. Turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, Rusiya, Qazaxıstan və Özbəkistandan olan güləşçilər mübarizə aparır.

Turnirin ilk günündə 42, 46, 50, 54, 58, 63, 69, 76, 85 və 100 kiloqram çəkidə sərbəst güləş üzrə 190 pəhləvan mükafat uğrunda yarışa qoşulub. Çəki dərəcələri üzrə I, II, III yerləri tutmuş idmançılar diplom, medal və qiymətli hədiyyələrlə təltif ediliblər. Umidjon Jalalov (Özbəkistan, 42 kq), Elman Kadırseit (Qazaxıstan, 46 kq), Nurimbek Atabekuli (Qazaxıstan, 50 kq), Daulet Temirjanov (Qazaxıstan, 54 kq), Vüsal Hüseynov (Azərbaycan, 58 kq), Bilal Tavayev (Rusiya, 63 kq), Davud İbrahimov (Azərbaycan, 69 kq), İslam Əliyev (Azərbaycan, 76 kq), Sənan Əliyev (Azərbaycan, 85 kq) və Adəm İsmayılov (Azərbaycan, 100 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Komanda hesabında Azərbaycan güləşçiləri birinci, Qazaxıstan ikinci, Özbəkistan isə üçüncü yeri tutub və kubokla mükafatlandırılıblar.

# Azərbaycan pəhləvanları yeni rekordlara imza atıblar



Gürcüstanın Marneuli rayonunda dünya rekordçuları festivalı keçirilib. Festivalda Azərbaycanı təmsil edən pəhləvanlar Vüsal Cavadov, Laçın və Hüseyn Abdulhüseynov qardaşları, eləcə də Gürcüstanda «Maqnit adam» ləqəbi ilə tanınan azərbaycanlı idmançı Etibar Elçiyev-Budaqlı məşhur «Cəngi» havasının sədaları altında güclərini sınayıblar.

Əvvəlcə pəhləvan güləşi üzrə üçqat dünya və Avropa çempionu Vüsal Cavadov əlləri üstə yeriyərək və 1750 kiloqram çəkisi olan «Ford» markalı minik avtomobilini dişləri ilə 3,5 metr dartaraq yeni dünya rekorduna imza atıb. Sonra o, ayaqlarından asılı vəziyyətdə 40 kiloqram yükü dişləri, daha 40 kiloqram yükü isə eyni vaxtda əlləri ilə qaldırıb.

Laçın Abdulhüseynov göz almacıqlarının boşluğunda 34 kiloqram 150 qram ağırlığında olan yükü qaldıraraq 8 saniyə saxlamaqla, həmçinin 5 mismarı başı ilə taxtaya vurmaqla iki yeni rekord müəyyən edib. Hüseyn Abdulhüseynov isə döş qəfəsinin boğaz nahiyəsindəki sümüyü ilə avtomobili dartmaqla və 41,3 kiloqram ağırlığındakı çəki daşlarını döş sümüyü ilə qaldırmaqla yeni rekorda imza atıb. Pəhləvanların ayaqlarının və qollarının üzərindən ağır avtomobillərin keçməsi də yeni rekord kimi qeydə alınıb.

E.Elçiyev-Budaqlı isə sinəsindəki 18 kiloqram ağırlığındakı dəmir lövhənin üstündə 60 kiloqram ağırlığında adamı oturtmaqla, habelə çəkisi 1750 kiloqram olan «Ford» avtomobilini 8 metrdən uzaq məsafəyə dartmaqla yeni rekord müəyyən edib. Sonra pəhləvanın sinəsi üzərində çəkiclə 17 kərpic sındırılıb və bununla da o, daha bir rekorda nail olub.

Qafqaz Dünya Rekordları Federasiyasının baş katibi Şota Keldişvili jurnalistlərə bildirib ki, festivalı təşkil etməkdə məqsəd Azərbaycandan gəlmiş pəhləvanların və Gürcüstanda yaşayan azərbaycanlı «Maqnit adam»ın yeni rekordlarını dünyaya çatdırmaq, idmanı təbliğ etmək, eyni zamanda, gənclərin idmana marağını artırmaqdır. O, azərbaycanlı pəhləvanların yeni rekordları ilə bağlı videomaterialların və müvafiq sənədlərin Dünya və Ginnesin rekordları təşkilatlarına göndəriləcəyini bildirib.

# Arda Turan «Barselona»dan ayrıla bilər

Keçən mövsüm 40 milyon avroya Madridin «Atletiko» komandasından «Barselona»ya keçən Arda Turan daha bir transfer astanasındadır. Katalon klubunun türkiyəli futbolçusunun artıq Çinin «Şanxay Şenxua» klubu ilə razılığa gəldiyi bildirilir. Üçillik müqaviləyə əsasən, Ardanın bir mövsüm üçün məvacibi 20 milyon avro təşkil edəcək. Hazırda «Şanxay Şenxua»nın «Barselona» ilə yekun məbləğə dair danışıqlar apardığı bildirilir. Tərəflər 29 yaşlı futbolçunun transferi üçün nə qədər kompensasiya ödəniləcəyini müzakirə edirlər.

Qeyd edək ki, 2015-ci ildən İspaniya təmsilçisinin heyətində çıxış edən Arda cari mövsümdə 21 oyun keçirib, 11 qol vurub və 7 məhsuldar ötürmə verib.



## mozaika

arxeologiya

# Yeni arxeoloji tapıntılar



Azərbaycan Tarixi Muzeyinə bu yaxınlarda daxil edilən təsadüfi tapıntılar arasında yeddi ədəd saxsı qab da var. Muzeydən bildiriblər ki, həmin qablar 2016-cı ildə Qobustan rayonunun Qurbançı kəndinin ərazisində aparılmış kanal qazıntısı zamanı aşkarlanıb. Bunlar məişətdə istifadə olunmuş mətbəx və süfrə qablarıdır. Saxlanma vəziyyətlərinə görə dördü natamam, üçü tamdır. Tapıntılar muzeyin arxeologiya fonduna təhvil verilib.

Saxsı qabların antik dövrə, bizim eradan əvvəl IV-II əsrlərə aid olduğu ehtimal edilir. Bu təsadüfi tapıntılar Şirvan bölgəsinin maddi mədəniyyətinə aid olub, təmsil etdikləri dövrdə dulusçuluq sənətinin inkişaf səviyyəsi haqqında dolğun təsəvvür yaradır. Eyni zamanda, həmin qablar Qafqaz Albaniyası əhalisinin məişətini və bədii zövqünü əks etdirən məxəz kimi də çox dəyərlidir.

maraqlı

# Bir əsrdən çox yaşı olan rekordsmen

Yüz beş yaşlı fransız Rober Marşan Fransanın milli velodromunda bir saata 22,5 kilometr məsafə qət edərək öz yaş kateqoriyasında rekorda imza atıb. Hazırda Marşan 105 yaşdan yuxarı velosipedçilər arasında çempiondur. O, 2012-ci ildən bəri «100 yaşdan 105 yaşadək» kateqoriyasında çempion titulunu əlində saxlayır. «Mən bura çempion olmaq üçün deyil, 105 yaşlı insanın velosiped sürə biləcəyini sübut etmək üçün gəlmişəm», - deyə Marşan yürüşdən sonra qeyd edib.

Velosipedçinin sözlərinə görə o, distansiyanı daha yaxşı nəticə ilə - bir saata 26,9 kilometr qət edərək başa vura bilərdi. Bu yaşda əla fiziki göstəriciyə necə nail olduğu barədə suala cavabında Marşan düzgün pəhrizin vacibliyini vurğulayıb. O, mütəmadi olaraq meyvə və tərəvəz yeməyi, ətdən az istifadə etməyi və çoxlu qəhvə içməməyi məsləhət görüb. Qocaman fransız günün bir saatını velosiped trenajorunda keçirir.

Rober Marşan 1911-ci ildə anadan olub. İkinci Dünya müharibəsi zamanı nasistlərə əsir düşüb. Müharibədən sonra Venesuelada şəkər qamışı plantasiyasında və Kanadada oduncu işləyib. O, idmançı kimi beynəlxalq gimnastika yarışlarında ölkəsini təmsil edib, həmçinin boksla məşğul olub.



internet

# «Yahoo!» gedir

«Yahoo!» internet şirkətinin adı «Altaba»ya dəyişdiriləcək. Bu barədə «Yahoo!»nun rəhbəri Marissa Mayer açıqlama verib. Marissa Mayerin və şirkətin direktorlar şurasının daha dörd üzvünün rəhbərliyi tərk etmələri gözlənilir.

Bu yaxınlarda ABŞ-ın mobil operatoru «Verizon Communications» tərəfindən 4.8 milyard dollar qarşılığında alınan «Yahoo!», eyni zamanda, 15 faizlik hissə ilə Çinin ən böyük firmalarından biri olan «Alibaba»nın və 35 faizlik hissə ilə də «Yahoo! China»nın səhmdarları kimi diqqət çəkir.

«Yahoo!»nun yeni adının niyə məhz «Altaba» olacağına dair məlumat verilməsə də, bu adın xüsusilə «Alibaba» sözü ilə oxşarlığı versiyalardan biridir.

cəmiyyət

# Dünya səviyyəli məsələ

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev bildirib ki, internetdə uşaqların psixologiyasına və sağlamlığına mənfi təsir edən çoxlu sayda məlumat yayılıb və onların təbliğatını aparan kontentlər ziyanlı informasiya daşıyıcılarıdır.

Beynəlxalq aləmdə qeyd olunan problemlə bağlı yanaşmalar və çağırışlar haqqında danışan alim bu sahədə İngiltərədə fəaliyyət göstərən «The Internet Watch Foundation» təşkilatının mühüm rola malik olduğunu söyləyib. Qeyd edib ki, bu kimi təşkilatlara daxil olan müraciətlər əsasında internetdə rast gəlinən təhlükələrə qarşı mübarizə aparılır.

Ölkəmizdə bu sahədəki mövcud problemlərin araşdırılmasına böyük ehtiyac olduğunu söyləyən R.Əliquliyev bildirib ki, media orqanlarında mütəxəssislər tərəfindən müntəzəm olaraq maarifləndirmə işləri aparılmalı və problem populyarlaşdırılmalıdır. Alim müvafiq qurumlarla birgə bu istiqamətdə tədbirlərin həyata keçirilməsinin vacibliyini vurğulayıb. O, həmçinin, ölkəmizdə bununla bağlı atılacaq addımlardan biri kimi Institutun Tədris-İnnovasiya Mərkəzinin nəzdində uşaqların internetdə təhlükəsizliyinin təmin edilməsi problemləri ilə məşğul olacaq mərkəzin yaradılmasının vacibliyini qeyd edib. Alim deyib ki, mərkəzdə əldə olunan məlumatların intellektual analizi bu problemlərin həlli baxımından böyük əhəmiyyət daşıyacaq.






ELAN

**«Vergilər» qəzetinə 2017-ci il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.

Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


**Müdriklər deyib ki...**

*«Əxlaq dərsi vermək asandır, onu əsaslandırmaq isə çətin».*
*Artur Şopenhauer (1788-1860)*

